RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 114 (9859) 3 iyun 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib




## Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" sərgilərinin və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edib

**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın "ICA Events" şirkətinin İdarə Şurasının müşaviri **Tomas Hord** çıxış edərək dedi:

- Zati-aliləri, hörmətli cənab Prezident.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Təşkilat Komitəsinin adından böyük şərəf hissi ilə sizi 30-cu yubiley "Bakı Enerji Həftəsi"ndə salamlayıram. Zati-aliləri cənab Prezident, fürsətdən istifadə edərək Azərbaycanı ötən axşam fantastik qələbə münasibətilə də təbrik edirəm.

Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə minnətdarlığımızı ifadə edirik. Cənab Prezidentin iştirakı bu tədbirin Azərbaycanın enerji sektoru və bütövlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulayır. 1994-cü ildə Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal enerji səhnəsinə ilk cəsarətli addımlarını atdı. İlk dəfə keçirilən Xəzər Neft və Qaz Sərgisi Azərbaycanın müasir enerji strategiyasının və qlobal enerji əməkdaşlığının dinamik rolunu əks etdirən, əsasını qoyan tarixi "Əsrin müqaviləsi"nin imzalanması ilə eyni vaxta təsadüf etdi. O vaxtdan bəri "Bakı Enerji Həftəsi" enerjinin gələcəyini formalaşdırmaq üçün hökumətləri, qlobal şirkətləri və sənaye ekspertlərini bir araya gətirərək regionun ən nüfuzlu platformalarından birinə çevrildi.

Builki yubiley tədbiri Azərbaycanın enerji potensialına artan beynəlxalq marağı və inamı əks etdirən yeni iştirakçılar və milli pavilyonlarla yanaşı, 30 ölkədən 200-dən çox şirkəti qəbul edir.

Mən Azərbaycan Respublikasının Energetika Nazirliyinə, SOCAR-a, bütün dəyərli tərəfdaşlarımıza və sponsorlarımıza bu mühüm tədbirin həyata keçirilməsində əvəzsiz dəstəyinə görə səmimi təşəkkürümü bildirirəm. İcazə verin, hamınızı bu əlamətdar yubiley münasibətilə təbrik edim və sizə dəyərli müzakirələr, yeni əməkdaşlıqlar və maraqlı imkanlarla dolu, uğurlu, məhsuldar və ruhlandırıcı həftə arzulayım. Çox təşəkkür edirəm.

Böyük şərəf hissi ilə tribunaya Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevi dəvət edirəm.

* * *

Sonra dövlətimizin başçısı çıxış etdi.

→ 2

# Biz qalibik!

## Döyüş meydanında, siyasi müstəvidə, həm də idman arenalarında...

### Prezident İlham Əliyev minifutbol üzrə Azərbaycan milli komandasının üzvlərini qəbul edib



**İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib.** AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

→ 5

## Prezident İlham Əliyevin paylaşımı




## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib






## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan minifutbol yığmasını təbrik edib

"Azərbaycan minifutbol yığması dünya çempionatının qalibidir! Komandamıza parlaq qələbəyə görə təşəkkür edirəm! Sizinlə fəxr edirik! Milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!"



# Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib

## Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" sərgilərinin və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edib



## Prezident İlham Əliyevin çıxışı

- Xanımlar və cənablar, sabahınız xeyir olsun.

Əvvəlcə, bütün qonaqlarımızı salamlayıram və bizimlə birlikdə olduqlarına görə təşəkkür edirəm. Eyni zamanda təşkilatçılara da Azərbaycanın enerji gündəliyini davamlı olaraq dəstəklədiklərinə görə minnətdarlığımı bildirirəm.

Artıq qeyd edildiyi kimi, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı.

Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan - nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, - Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək.

Çünki bu gün həmin dövrə nəzər salanda aydın olur ki, müstəqillik uğrunda yol həmin tarixi məqamdan başladı. O zaman Azərbaycan müəyyən obyektiv səbəbdən xarici investorlar üçün riskli ölkə hesab edilirdi. Ölkədə vətəndaş qarşıdurması yeni başa çatmışdı, iqtisadiyyat iflic vəziyyətində idi, inflyasiya 1000 faizlə ölçülürdü və yoxsulluq hökm sürürdü. Bununla yanaşı, ərazilərimizin Ermənistan tərəfindən işğalı nəticəsində 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Təsəvvür edirsiniz ki, gələcəklə bağlı nə dərəcədə qaranlıq mənzərə yaranmışdı?! Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir.

Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir. Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir.

Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı.

Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib.

Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"dir.

Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır.

Ötənilki "Bakı Enerji Həftəsi"ndəki çıxışım zamanı mən iştirakçılara məlumat verdim ki, o zaman biz səkkiz ölkəyə təbii qaz ixrac edirdik. Bu gün isə deyə bilərəm ki, həmin ölkələrin sayı 12-yə çatıbdır və bu, hələ də son deyil.

Biz ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindəyik. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilmişdir.

Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük.

Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir. Hər kəs üçün uğurlu vəziyyət yaranır və biz hər zaman istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balansına diqqət yetirmişik. Çünki zənnimcə, bu amil gələcək enerji əməkdaşlığı baxımından olduqca vacibdir.

Bizim təbii qaz ixracımız ötən il 25 milyard kubmetrə çatmışdır. Biz hasilatı artırmaq niyyətindəyik, çünki artıq müqavilələr imzalanıbdır və proses getməkdədir. İşlər planlarımıza uyğun getsə, biz 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artıracağıq və o, xarici bazarlara təklif ediləcəkdir.

Bununla yanaşı, imzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, biz 2030-cu ilədək 6,5 qiqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacağıq. Bu da bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcək.

Yəni Azərbaycanın "yaşıl enerji" gündəliyi olduqca iddialıdır. Neft və qazla zəngin olan ölkənin xarici investorlarla bərabər "yaşıl enerji"yə sərmayə qoyması bizim məsuliyyətimizi nümayiş etdirir.

Bütün bu "yaşıl enerji" potensialımız sayəsində biz, əlbəttə ki, Azərbaycanın elektrik enerjisinə artan tələbatını təmin edəcəyik, əsasən bərpaolunan enerji hesabına təmin edəcəyik. Bunun nəticəsində bir neçə milyard kubmetr qaza qənaət ediləcəkdir və bu həcm ixrac oluna biləcək.

Əlbəttə, ola bilər ki, COP29-un sədri olaraq neft və qaz haqqında danışmağımız bir o qədər də uyğun deyil. Ancaq bizim COP29-la bağlı gündəliyimiz çox praqmatik idi. Biz populizmdən, yalançı narrativlərdən uzaq idik. Həmin gündəlik ölkələrin qazıntı yanacağına olan tələbatının praqmatik hesablamalarına əsaslanır.

Bəzi ölkələrdə bu gün qazıntı yanacağı növləri ilə "yaşıl enerji" arasında olan balans nəzərə alınmır. Nəticədə genişmiqyaslı enerji kəsilməsi, enerji sisteminin çökməsi baş verir. Həmçinin burada daha mürəkkəb ssenarilər də baş verə bilər. Yəni bəzi müəyyən addımları şərtləndirən meyillərə rəğmən həmin balansın qorunması düzgün siyasətdir.

Azərbaycana gəldikdə, biz təbii qazın hasilatının həcmini artırırıq. Çünki buna ehtiyacı olan ölkələr var və biz bu tələbatı ödəməliyik. Eyni zamanda biz tərəfdaşlarımızla birlikdə "yaşıl enerji" layihələrinə də yatırım edirik.

2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir. Yəni bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaqlar. Həmçinin imzalanmış yeni sazişlər və nəzərdə tutulan müqavilələr həmin potensialı təmin edəcəkdir.

Ötən il "Bakı Enerji Həftəsi" çərçivəsində toplam 1000 meqavat "yaşıl enerji" həcmində müqavilələr imzalandı. Bu tədbir çərçivəsində də bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaqdır. Yəni biz bu yol ilə irəliləyirik.

COP29 haqqında danışarkən onun həqiqətən də uğurlu olduğunu qeyd etməliyik. Onun "Bakı sıçrayışı" adlandırılması bir çox hədəflərə nail olmağımızla bağlıdır. Onların hər birini sadalamaq istəmirəm. Ancaq burada mühüm nailiyyət kimi, İtki və Zərər Fondunu və inkişafda olan ölkələr üçün nəzərdə tutulmuş yardımın 100 milyard dollardan 300 milyard dollara qədər artırılmasını qeyd etmək istəyirəm. Bununla yanaşı, 10 il davam edən müzakirələrdən sonra karbon bazarı da işlək vəziyyətə gətirildi.

Enerji bazarında məsuliyyətli aktor, hər zaman real hədəfləri qarşısına qoyan və müxtəlif oyunçuları bir araya gətirə bilən ev sahibi olan Azərbaycanın mirası məhz bundan ibarətdir.

COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr, - inkişaf etmiş ölkələr, - və bundan əziyyət çəkən, hətta bəzilərinin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam edəcəyik.

Bir daha bütün qonaqlarımızı salamlayır və "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Sağ olun.

* * *

ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə baş müşaviri **Vayat Tolki** çıxış edərək dedi:

- Təşəkkür edirəm, cənab Prezident Əliyev, nazirlər, möhtərəm qonaqlar.

Bu gün sizinlə, həqiqətən də, əlamətdar tədbirdə - 30-cu yubiley "Bakı Enerji Həftəsi"ndə böyük şərəf hissi ilə iştirak edirəm. ABŞ və Azərbaycan enerji sektorunda onilliklərə söykənən təcrübəyə, müştərək əməkdaşlığa malikdir. "Əsrin müqaviləsi"nin imzalanmasının ildönümünün keçirilməsi də ikitərəfli enerji münasibətlərini təcəssüm etdirir. "Əsrin müqaviləsi"ndən "Cənub qaz dəhlizi"nə qədər Azərbaycan həqiqətən də enerji təhlükəsizliyinin regionda və ondan geniş coğrafiyada həlledici oyunçu olduğunu sübut etmişdir. Azərbaycanla ortaq maraqlarımızı əks etdirən və enerji təhlükəsizliyinin təmin olunmasında işbirliyinə sadiqliyimizi təsdiq edən mühüm bir mesajı - cənab Prezident Trampın məktubunu diqqətinizə çatdırıram.

*"Əziz cənab Prezident!*

*Sizi və Azərbaycan xalqını səmimi-qəlbdən 30-cu Bakı Beynəlxalq Neft və Qaz Sərgisinin keçirilməsi münasibətilə təbrik edirəm. Bu, Azərbaycanın, həqiqətən də, regionda enerji sektorunda liderliyini və qlobal enerji təhlükəsizliyini təcəssüm etdirir. Otuz il ərzində iki millətimiz, iki xalqımız, həqiqətən də, enerji sərvətləri fonunda karbohidrogen sektorunda liderliyini nümayiş etdirmişdir. Həqiqətən də, qlobal enerji ehtiyatlarının növbəti onillərlə qarşılanması baxımından da bu çox önəmlidir ki, hər bir xalqın resursları öz rifahına xidmət etsin.*

*ABŞ Azərbaycanla tərəfdaşlığını enerji sabitliyinin həyata keçirilməsinin mümkünlüyü istiqamətində də davam etdirmək əzmindədir. Biz bu önəmli sektorla birlikdə səylərimizi enerji müstəqilliyinin dayanıqlılığı və iqtisadi artım istiqamətində reallaşdıra bilərik. Bu gözəl tədbirlə bağlı bir daha təbriklərimi çatdırıram. Səmimi-qəlbdən,*

***Donald Tramp".***

* * *

Sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri **Alparslan Bayraktar** Prezident Rəcəb Tayyib Ərdoğanın "Bakı Enerji Həftəsi" ilə bağlı məktubunu oxudu.

*" - Hörmətli iştirakçılar.*

*Dəyərli qonaqlar.*

*Hamınızı ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.*

*Ötən illərdə olduğu kimi, bu il də "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərin əbədi qardaş iki ölkə - Türkiyə və Azərbaycan başda olmaqla bölgəmiz üçün uğurlu olmasını diləyirəm.*

*Can Azərbaycan ilə yaxın münasibətlərimiz bütün sahələrdə olduğu kimi, enerji sahəsində də güclü şəkildə və qətiyyətlə davam etdirilir. Enerji sahəsində bir çox nailiyyətə illər ərzində birlikdə imza atdıq. Son illərdə yaşanan qlobal geosiyasi proseslər enerji təhlükəsizliyi məsələsində Türkiyə-Azərbaycan əməkdaşlığının nə qədər önəmli olduğunu bir daha təsdiqləmişdir.*

*Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri və TANAP kimi infrastruktur layihələri ilə taclandırdığımız bu əməkdaşlığımız təkcə Türkiyə və Azərbaycana deyil, eyni zamanda bölgənin və Avropanın da enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir.*

*Mart ayında açılışını etdiyimiz İğdır-Naxçıvan boru kəməri illərə və uğurlara əsaslanan enerji əməkdaşlığımızın ən yeni örnəyini təşkil etmişdir. Xəttin fəaliyyətə başlaması Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini və bizi birlikdə daha da gücləndirmişdir.*

*Türkiyə ilə Azərbaycan arasında elektrik əlaqələrimizin artırılması bizim üçün strateji əhəmiyyət kəsb edən digər bir layihədir. Bu çərçivədə həm Türkiyə-Naxçıvan, həm də Türkiyə-Gürcüstan interkonnektor potensialının genişləndirilməsi sürətlə atmalı olduğumuz yeni addımlardır. Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında yeni elektrik interkonnektor xəttinin yaradılması məqsədilə "yaşıl elektrik" nəqli və ticarəti ilə bağlı əməkdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq.*

*Bölgəmizin enerji təhlükəsizliyi və rifahı baxımından növbəti tarixi addım olan bu layihəni də, inşallah, ən qısa müddətdə yekunlaşdırmağı hədəfləyirik.*

*İki ölkə arasında təbii qaz sahəsində yeni layihələr üçün hələ də böyük potensialın olduğunu görürük. Uzun illərdir həm Türkiyəyə, həm də Avropaya ciddi miqdarda qaz tədarük edən Azərbaycanın dünya enerji bazarında bu strateji rolunun, xüsusilə yerləşdiyimiz mövqedə əhəmiyyəti çox böyükdür. Qarşıdakı dövrdə türkmən qazının hər birimizə fayda verəcək şəkildə Azərbaycan və Türkiyə vasitəsilə ixracı məsələsində əməkdaşlığımızı genişləndirmək üçün mühüm fürsət vardır. Bu layihə həm tədarük yollarının şaxələndirilməsinə, həm də regional rifaha töhfə verəcəkdir.*

*Enerji sahəsindəki bu dinamik şəraitin və proseslərin yaxından müzakirə ediləcəyi "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarına uğurlar diləyir, bu tədbirin təşkilində əməyi keçənlərə təşəkkür edirəm.*

*Keçən həftə Laçında görüşdüyüm qardaşım Prezident İlham Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram.*

***Rəcəb Tayyib Ərdoğan, Türkiyə Prezidenti"***

Daha sonra çıxış edən nazir **Alparslan Bayraktar** dedi:

- Cənab Prezident Əliyev.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Sizi çox önəmli platforma olan "Bakı Enerji Həftəsi"ndə böyük şərəf hissi ilə salamlayıram. Mən səmimi-qəlbdən Zati-aliləri cənab Prezident Əliyevə və Azərbaycan hökumətinə liderliyinə görə, həmçinin bu tədbirin keçirilməsində göstərdiyi səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Əlbəttə, kibertəhlükəsizlik, bazarlarda dəyişən vəziyyət istər-istəməz öz təsirini göstərir. Burada tədarük və təchizatla yanaşı, çeviklik, dayanıqlılıq, resursların əlçatanlığı da ön plana gəlir. İnfrastruktur ehtiyaclarının sürətlə artdığı vəziyyətin fonunda sabitlik məsələsi də gündəmə daha kəskin gəlir ki, bunların təmin olunması üçün resursları şaxələndirməliyik. Geniş tədarük imkanları yüksək qarşılıqlı bağlantı və etibarlı bazarların olması ilə şərtlənir. Üç əsas səbəb - təhlükəsiz təzminat, asılılığın azaldılması və əlçatanlılıq məsələləri önəmlidir. Bunların təmin olunması üçün alternativ enerji, nüvə enerjisi, neft və qaz sənayesinin, həmçinin kritik mineral qazıntıların inkişaf etdirilməsi önəmlidir.

Türkiyədə alternativ enerji elektrik enerjisinin 60 faizini təşkil edir. Keçən il Bakıda COP29 zamanı biz qarşıya mövcud Günəş və külək enerjisini 2035-ci ilədək 120 qiqavata çatdırmaq məqsədi qoymuşuq. Bunun üçün də keçən il biz enerji səbətinə 7 qiqavat alternativ enerji daxil etdik. İnfrastrukturun inkişaf etdirilməsində məqsəd iqtisadiyyatın artan tələbatını qarşılamaqdır. Bunun üçün gələn il batareya depolarını və nüvə stansiyasını istifadəyə verməyi nəzərdə tuturuq.

Coğrafi baxımdan Türkiyə bu sahədə əlaqələri genişləndirmək əzmindədir. Eyni zamanda daxili karbohidrogenlərin istehsalına da töhfə verməliyik. Bu gün Sakarya qaz yatağında gündəlik 9,5 milyon kubmetr qaz hasil edirik və bu rəqəm 2026-cı ildə iki dəfə artacaq və 2028-ci ilədək isə gündəlik 40 milyon kubmetrə çatacaq.

Əlbəttə, biz kritik mineralların əhəmiyyətindən də xəbərdarıq və qazıntı layihələrinə həm daxildə, həm də beynəlxalq miqyasda aktiv olaraq investisiya yatırılmaqdadır və buraya nadir qazıntılar da daxildir.

Möhtərəm iştirakçılar, Türkiyə ilə Azərbaycan arasındakı tərəfdaşlıq, həqiqətən də, bir strateji modeldir. Onun kökləri tarixi, mədəni və ortaq bağlarla ifadə olunur. Bu gün biz əsas sazişin imzalanması ilə Azərbaycanda neft-qaz istehsalını daha da artıracağıq. Söhbət "Şəfəq-Asiman" layihəsi üzrə sazişdən gedir. Bu, "Turkish Petroleum", SOCAR və BP arasında üçtərəfli bir işbirliyi olacaqdır.

Yekunda mən səmimi-qəlbdən cənab Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürümü ifadə edirəm ki, bizi bir daha bir araya gətirmişdir. Enerji sektorunda üzləşdiyimiz çağırışlar mürəkkəbdir, lakin mən əminəm ki, əməkdaşlıq və dialoqla biz təhlükəsiz enerji gələcəyi qura biləcəyik. Təşəkkür edirəm.

* * *

Avropa Komissiyasının Energetika Baş idarəsinin direktoru **Kristina Lobilyo Borrero** çıxış edərək dedi:

- Zati-aliləri Prezident Əliyev.

Hörmətli nazirlər, səfirlər və "Bakı Enerji Həftəsi"nin iştirakçıları.

İcazə verin, Avropa Komissiyası adından Azərbaycanı "Bakı Enerji Həftəsi"nin keçirilməsi, həmçinin COP29-un uğurlu təşkili münasibətilə təbrik edim.

Biz 2030-cu ilədək bərpaolunan enerji ehtiyatlarının istehsalını üç dəfə artırmaq və enerji səmərəliliyini ikiqat çoxaltmaq səylərini təsdiq edirik. Siz isə milli reallıqların nəzərə alınması şərti ilə, amma orta hədəf və məsuliyyətlə inklüziv keçid üzrə konsensus əldə edilməsinə köməklik göstərirsiniz. Energetika keçidi enerji təhlükəsizliyi və iqtisadi rəqabətqabiliyyətlilik əsasında həyata keçirilməlidir. Bu, sadəcə, siyasi məqsədlərdən ibarət deyil, həmçinin iqtisadi və geosiyasi sabitliyin əsasıdır. Son illərin hadisələri xüsusi israr və aydınlıqla bizə bu dərsi verdi.

Rusiya-Ukrayna müharibəsi göstərdi ki, enerjidən silah qismində istifadə oluna bilər. Avropa İttifaqı (Aİ) özünün enerji sistemi tarixində şaxələndirməyə, bərpaolunan enerji mənbələrinə və tərəfdaşlıq münasibətlərinə əsaslanan yeni fəsil açır. Bu gün Rusiya qazının idxalında 2021-ci ildəki Aİ-yə tədarük olunan təbii qazın ümumi həcminin 45 faizdən 13 faizə qədər azalması müşahidə olunur.

Azərbaycan bu yeni fəsildə güclü tərəfdaşdır. Amma hələ yolun sonuna çatmamışıq. Mayın 6-da Avropa Komissiyası Rusiya enerjisindən uzaqlaşmağın yollarını müəyyən edən "Repower EU" adlı yeni yol xəritəsini təqdim etdi.

Azərbaycan qazının "Cənub qaz dəhlizi" vasitəsilə nəqli, o cümlədən Trans-Adriatik Boru Kəmərinin 2026-cı ilə qədər planlaşdırılan genişləndirilməsi bu səylərin mühüm tərkib hissəsidir. Amma bizim tərəfdaşlığımız təkcə qazla bağlı deyil. Söhbət sabahın enerji sisteminin qurulmasından gedir.

Bu, bərpaolunan elektrik enerjisi, hidrogen və inteqrasiya olunmuş enerji sistemlərinə sərmayə qoymaq deməkdir. Azərbaycan bərpaolunan enerjinin əsas istehsalçısı olmaq potensialına və ambisiyasına malikdir. Dənizdə külək və Günəş enerjisini inkişaf etdirmək planlarınızı alqışlayırıq və Azərbaycanın nəhəng bərpaolunan enerji potensialını dəstəkləmək üçün birgə işi davam etdirməyə hazırıq.

Əməkdaşlığımız daha çox yaxınlaşmağa doğru bu irəliləyişi əks etdirir. Biz Azərbaycanla birgə sərmayə qoymaq, layihələr hazırlamaq və həyata keçirmək istəyirik. Avropanın özəl sektoru bu baxımdan güclü tərəfdaşdır.

Avropa şirkətləri elektroliz qurğuları, smart şəbəkələr, külək turbinləri və enerjisaxlama sistemləri də daxil olmaqla təmiz texnologiyalar sahəsində dünya liderləridir. Aİ-nin Qara dəniz regionuna bir neçə gün əvvəl başlayan yeni strateji yanaşması enerji keçidi və qarşılıqlı enerji əlaqəsi üzrə daha sıx əməkdaşlıq etməyi planlaşdırır. Qara dəniz regionlarımızı birləşdirən əsas qapıdır. Qara dənizə strateji yanaşmamız bərpaolunan enerji mənbələrinin inteqrasiyasını sürətləndirmək, enerji sisteminin sabitliyini və dayanıqlılığını təmin etmək üçün əsas amil kimi daha güclü daxili və regionlararası enerji inteqrasiyasının təşviqinə yönəlib. Beləliklə, gəlin, ümumi ambisiyalarımızı konkret nəticələrə çevirək. Gəlin, təkcə alıcılar və satıcılar kimi deyil, həm də davamlılığın, tərəqqinin və enerji təhlükəsizliyinin təmin edilməsində tərəfdaşlar kimi irəliyə doğru addımlayaq.

Dəvətə görə bir daha çox sağ olun. "Bakı Enerji Həftəsi"nin iştirakçılarına məhsuldar iş arzulayıram.

Sağ olun.

* * *

OPEC-in Baş katibi **Haysam Əl-Qays** çıxış edərək dedi:

- Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri cənab Prezident İlham Əliyev.

Möhtərəm qonaqlar, xanımlar və cənablar.

Zati-aliləri Prezident Əliyev neft və qaz resurslarını belə təsvir etmişdir: "Allahın sovqatı, hədiyyəsi". Bu ifadə, həqiqətən də, tarixdə bir rezonans yaradıb. İllərdir, onilliklərdir və bundan sonra da bu məsələ dünyamız üçün, həqiqətən də, önəmli olacaqdır. Yalnız neft və qaz istehsalçıları üçün deyil, həmçinin neft və neft məhsullarından gündəlik həyatlarında istifadə edən istehlakçılar üçün də önəmli olacaqdır.

Cənab Prezident, mən həm müdrik fikirlərinizə, həm də praqmatik siyasətinizə görə Sizə təşəkkür etmək istəyirəm. O fikirlər ki, biz onu keçən dəfə COP29-da, bu səhər isə burada eşitdik. Həmçinin OPEC ilə qeyri-OPEC istehsalçılar, "OPEC Plus" kimi tanıdığımız dövlətlər, ölkələr arasında əməkdaşlıq bəyannaməsinə verdiyiniz davamlı dəstəyinizə görə Sizə minnətdarıq.

Zati-aliləri, Siz, həqiqətən də, böyük liderlik nümayiş etdirirsiniz. OPEC və qeyri-OPEC dövlətləri arasında işbirliyinin inkişafında, həmçinin adıçəkilən bəyannamənin 2016-cı ilin dekabrında qəbulu zamanı verdiyiniz dəstəyə görə Sizə təşəkkür edirik. Cənab Prezident, icazənizlə, dostum, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazova da təşəkkürümü ifadə etmək istəyirəm. O, həqiqətən də, bu bəyannamənin hazırlanmasına layiqli töhfə vermişdir.

Zati-aliləri, möhtərəm xanımlar və cənablar, diqqətinizə çatdırmaq istəyirəm ki, neft və neft məhsulları bundan sonra da dünya üzrə əsas istehlak resursları olacaq. Yaddan çıxarmayaq ki, karbohidrogenlər 1980-ci illərdə olduğu kimi, bu gün də dünya enerji resursları səbətinin 80 faizini təşkil edir. Neft və neftdən əldə olunan məhsullar müxtəlif sektorlar və sənayelər üçün yenə də insanın təsəvvür edə biləcəyindən də çox ehtiyacları qarşılayır. Təsəvvür edin ki, neft və neftdən əldə olunan məhsullar yoxdur. Bu zaman nəqliyyat iflic vəziyyətə düşəcəkdir, qida istehsalı dayanacaqdır, səhiyyə xidmətləri və iqtisadi artım tənəzzülə uğrayacaqdır.

Ardı 3-cü səh.

# Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilib

## Prezident İlham Əliyev 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" sərgilərinin və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxış edib

*Əvvəli 2-ci səh.*









Dünya ildən-ilə daha da çox neft istehlak edir və bu, bir faktdır. Keçən il qazın, kömürün, neftin və həmçinin alternativ enerji növlərinin istehlakı rekord səviyyəyə çatmışdır. Bir daha vurğulamaq istəyirəm ki, dünyaya bütün enerji resursları lazımdır, xüsusən də dünya əhalisinin sayının, urbanizasiyanın artdığı, süni zəkanın, yeni texnologiyaların inkişaf etdiyi indiki zamanda. Eyni zamanda digər tərəfdən, tullantıların, emissiyaların azaldılması da diqqət mərkəzində saxlanılmalıdır.

Enerji təhlükəsizliyi gələcəkdə də hamı üçün əlçatan olmalıdır. Mən bununla əlaqədar üç xüsusi məqamı qeyd etmək istərdim. Birincisi, bizim enerji gələcəyimiz ideoloji olmamalıdır. Çünki alternativ enerji mənbələrinə keçid uzunmüddətli prosesdir. Bu mənada çıxışlarımızda, mesajlarımızda realist olmaq lazımdır. İkincisi, biz bütün insanların və xalqların enerji cəhətdən də ehtiyaclarını qarşılamalıyıq. Çünki burada hələ də boşluqlar var. Gələcək inkişaf kompleks, inklüziv, ədalətli, eyni zamanda bərabər imkanlarla ifadə olunmalıdır. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının əsas prinsiplərini nəzərə almaqla demək lazımdır ki, - yeri gəlmişkən, bu da ötən il Bakıda keçirilən COP29-da ifadə olunmuşdu, - Paris sazişinin əsas məqsədi emissiyaları azaltmaqdır, nəinki enerji mənbələrini əvəzləmək. Üçüncüsü, bizə daha çox investisiyalar və sərmayələr lazımdır. Zati-aliləri, xanımlar və cənablar, yalnız neft üçün tələb edilən investisiyalar 17,4 trilyon ABŞ dolları ilə ifadə olunur. Bu isə 2050-ci ilə qədər hər il 650 milyard investisiya deməkdir. Odur ki, müasir texnologiyalara xüsusi diqqət yetirilməlidir. Çünki investisiyalarla yanaşı, texnologiyalar bizə bütün xalqlar və bütün dövlətlər üçün enerji ehtiyaclarını qarşılamağa imkan verəcəkdir.

Zati-aliləri, xanımlar və cənablar, hörmətli qonaqlar, Azərbaycan, həqiqətən də, gələcək enerji inkişaf yolunda əsl lider olduğunu nümayiş etdirmişdir. Bu, əyani şəkildə görünür. Azərbaycanın konstruktiv mövqeyi COP29-un Bakıda keçirildiyi zaman, həmçinin OPEC və qeyri-OPEC dövlətləri arasında dialoqda da özünü göstərmişdir. Bu, enerji bazarı sabitliyi baxımından olduqca önəmlidir. OPEC olaraq, biz də Azərbaycanla işbirliyimizi davam etdirmək əzmindəyik ki, hamı üçün sabit, dayanıqlı, təhlükəsiz enerji gələcəyi təmin olunsun. Elə bir gələcək ki, bütün cəhdlər bazarın sabitliyinin təmin olunması üçün səfərbər edilsin. Elə bir gələcək ki, biz gələcəyin enerjisini qarşılamış olaq. Azərbaycan müasir neft sənayesinin beşiyi olduğu kimi, eyni zamanda bütün enerji növlərinin təşəkkül tapmasının da beşiyidir. Neft, qaz, külək, Günəş enerjisi və digər növlərin. Odur ki, OPEC və onun üzvü olan dövlətlər də bu mövqeyi tam mənada dəstəkləyirlər. Bu inkişaf əsas mövzularla və məqsədlərlə də ifadə olunur. Zati-aliləri, OPEC-in növbəti beynəlxalq seminarına, - yeri gəlmişkən, bu tədbirimiz doqquzuncu dəfə iyulun 9-10-u Vyanada, Hofburq sarayında keçiriləcəkdir - biz Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazovu və digər rəsmi şəxsləri dəvət edirik.

Cənab Prezident, çıxışımın sonunda bildirirəm ki, bu tədbirdə Sizinlə bərabər iştirak etmək böyük şərəfdir. Təşrif buyurduğunuz üçün Sizə bir daha təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzu edirik. Çox sağ olun.

* * *

Böyük Britaniyanın Xarici İşlər, Birlik və İnkişaf Nazirliyi və Enerji Təhlükəsizliyi və Sıfır Emissiya Nazirliyinin Birgə Beynəlxalq Enerji Bölməsinin rəhbəri xanım **Sofi Vestleyk** çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident Əliyev.

Nazirlər, möhtərəm qonaqlar, xanımlar və cənablar.

Burada - "Bakı Enerji Həftəsi"ndə çox möhtərəm iştirakçılar qarşısında çıxış etməkdən böyük şərəf hissi duyuram. Böyük Britaniya hökuməti adından bir daha Azərbaycana bu dəvətə görə təşəkkür edirəm.

Birləşmiş Krallıq ölkələrimiz arasında əməkdaşlığı böyük şərəf hissi ilə qeyd edir. Bu əməkdaşlığın kökləri onilliklərə gedib çıxır. Bu əməkdaşlıq, həqiqətən də, xalqlarımızın rifahı, eyni zamanda, Avropa və qlobal enerji təhlükəsizliyi baxımından əlamətdar olmuşdur. Keçən ilin noyabrında bizim ölkənin Baş naziri COP29-a gələrək Azərbaycanın qlobal iqlim dəyişikliyində lider rolunu vurğulamışdır. Azərbaycan eyni zamanda qlobal və ədalətli enerji keçidində də lider rolunu oynayır. Yeni alternativ enerji ilə bağlı layihələrin ərsəyə gəlməsi Azərbaycanın həmişə enerji təhlükəsizliyində oynadığı rolunu vurğulamış olur. Birləşmiş Krallıq bundan sonra da Azərbaycanla bu yolda birlikdə irəliləyəcəkdir.

Uzunmüddətli enerji və iqlim təhlükəsizliyi ilə əlaqədar, təbii ki, yeni yanaşmalar, yeni texnologiyalar da tətbiq olunmalıdır. Biz Birləşmiş Krallıqda 2050-ci ilə qədər sıfır tullantıya nail olmağı və həmçinin 2030-cu ilə qədər təmiz elektrik enerjisi istehsalını qarşıya məqsəd qoymuşuq. Eyni zamanda Komissarın da qeyd etdiyi kimi, 2035-ci ilə qədər emissiyaların 85 faiz azaldılmasını hədəfləmişik.

G-7 ölkələri arasında biz kömürdən imtinanı bəyan edən ilk dövlət olmuşuq və investisiyaları bu sahəyə yönəltməyə çalışırıq. 2024-cü ilin iyulundan başlayaraq 43 milyard funt sterlinqdən daha çox özəl investisiya təmiz enerji sektoruna, alternativ enerji mənbələrinə yatırılacaqdır ki, bu, Birləşmiş Krallıqda qaz sənayesinə yatırılmış investisiyadan daha çox sərmayədir. Bu artıq yeni iş yerləri deməkdir.

Mən çox şadam ki, Birləşmiş Krallıq və Azərbaycan enerji əməkdaşlığımızda yeni fəslə imza atmışdır, Enerji İşçi Qrupu yaradılmışdır və çox iddialı bir iş planı qurmuşuq. Bu alternativ elektrik enerji bazarları və digər sahələri də özündə ehtiva edən bir təşəbbüsdür. Bunun, həqiqətən də, uzunömürlü enerji tərəfdaşlığı olacağına, dayanıqlı gələcəyin qurulmasına öz töhfəsini verəcəyinə ümid edirik.

Mən sizin hamınıza bu 30-cu yubiley tədbirində - "Bakı Enerji Həftəsi"ndə uğurlar diləyir, maraqlı ideyaların enerji əməkdaşlığına xidmət etməsini arzulayıram. Çox sağ olun.

* * *

Qeyd edək ki, "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərdə energetika sahəsində mövcud vəziyyəti, yeni imkanları və perspektivləri müzakirə etmək üçün 39 ölkədən 267 şirkətin nümayəndəsi iştirak edir. Regionun aparıcı sənaye tədbiri olan və hər il qlobal enerji liderlərini bir araya gətirən "Bakı Enerji Həftəsi" həm regional, həm də beynəlxalq səviyyədə etibarlı platforma kimi formalaşaraq qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən birinə çevrilib.

"Bakı Enerji Həftəsi" əsasını müstəqil Azərbaycanın beynəlxalq ixtisaslaşmış sərgisi olan "Caspian Oil and Gas" sərgisindən götürüb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış bu tədbir Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Yarandığı gündən etibarən "Caspian Oil and Gas" sərgisi neft, qaz və energetika sahələrinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı məkana çevrilib. Keçirildiyi 30 il ərzində "Bakı Enerji Həftəsi" Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə verib, dünyanın 80 ölkəsindən 9 mindən çox şirkəti, 170 mindən artıq ziyarətçini cəlb edib.

Bu il sərgi iştirakçılarının 35 faizini yeni şirkətlər təşkil edir. Azərbaycanın neft, qaz və enerji sektoruna beynəlxalq maraq artmaqda davam edir: sərgi iştirakçılarının təxminən 70 faizini xarici şirkətlər, 30 faizini isə yerli müəssisələr təşkil edir. Bu, yüksəksəviyyəli beynəlxalq əməkdaşlıqla yanaşı, yerli biznesin fəal iştirakını da bir daha nümayiş etdirir.

13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji "Caspian Power" sərgisində beynəlxalq və yerli şirkətlərin energetika və "yaşıl enerji" mənbələrinin inkişafı, istifadəsi sahəsindəki yeniliklər, həmçinin bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə Günəş, külək, geotermal enerji, istilik energetikası, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri, enerji resurslarına qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunur.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış oldu.

Dövlətimizin başçısı əvvəlcə Azərbaycanın və strateji tərəfdaşlarının enerji təhlükəsizliyinə mühüm töhfə verən SOCAR-ın stendinə baxdı. Bildirildi ki, SOCAR qlobal enerji şirkəti olaraq milli sərvətlərimizin beynəlxalq bazarlara çıxarılmasında strateji rol oynayır. Neft-qaz şirkətindən beynəlxalq enerji şirkətinə transformasiya istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirən SOCAR keyfiyyətli idarəetmə, şəffaflıq və müasir yanaşmalar əsasında enerji sektorundakı mövqeyini ardıcıl olaraq möhkəmləndirir. Axtarış-kəşfiyyat, hasilat, nəqletmə, emal, istehsal, marketinq, yanacağın pərakəndə satışı, qaz paylanması və bərpaolunan enerji mənbələrinin inkişafı kimi sahələrdə uğurla fəaliyyət göstərən şirkət rəqəmsallaşma, innovasiya, "yaşıl enerji"yə keçid vasitəsilə davamlı inkişafı və dayanıqlı artımı təşviq edir. SOCAR həmçinin iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edərək ekoloji cəhətdən təmiz, aşağıkarbonlu və qabaqcıl texnologiyaların tətbiqinə üstünlük verir.

"BP Azərbaycan" da sərgidə təmsil olunur. Dünyanın aparıcı enerji təchizatçılarından biri olan bu şirkət enerji mənbələrinin təhlükəsiz işlənməsi və hasilatı ilə məşğul olaraq müxtəlif enerji həlləri təqdim edir. Azərbaycanda 33 ildir fəaliyyət göstərən BP beş iri layihənin operatorudur və ölkənin enerji sənayesində mühüm rol oynayır. BP bu dövrdə tərəfdaşları ilə birgə Azərbaycana təxminən 85 milyard dollar sərmayə yatırıb, minlərlə iş yeri yaradıb və geniş sosial layihələr reallaşdırıb.

"Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) şirkəti qardaş ölkənin karbohidrogen kəşfiyyatı və hasilatı sahəsində 70 ildən çox təcrübəyə malik milli neft şirkətidir və Türkiyənin enerji sektorunun əsas iştirakçılarındandır. Azərbaycanla yanaşı, bir sıra ölkələrdə fəaliyyət göstərən şirkət 2025-ci il üçün İnvestisiya Proqramında dövlət müəssisələri arasında ən böyük investisiya büdcəsinə sahibdir. Şirkət 1994-cü ildən Azərbaycanda bir sıra enerji layihələrində iştirak edir.

İtaliyanın "MAİRE" şirkəti enerji keçidini təşviq etməkdə ixtisaslaşmış aparıcı texnologiya və mühəndislik qrupudur. Şirkət təkrar bazar üçün hərtərəfli mühəndislik və inşaat həlləri, davamlı texnoloji həllər təklif edir. Hazırda 45 ölkədə fəaliyyət göstərən "MAİRE" şirkəti 20 min layihə tərəfdaşından ibarət qlobal şəbəkə tərəfindən dəstəklənir.

"Almaniya Federativ Respublikasının Milli Pavilyonu"nda müxtəlif sənaye sahələrinə dair geniş çeşiddə məhsul və xidmətlər təqdim olunur. Bunlara avtomatlaşdırma və proses avadanlıqları, ölçmə və idarəetmə sistemləri, neft və qaz emalı üçün avadanlıqlar, laboratoriya və süzgəc sistemləri daxildir. Bundan əlavə, iştirakçılar neft və qazın nəqli, kəşfiyyatı və hasilatı sahələrində həllər, boru kəmərlərinin tikintisi, texniki baxışı və təmiri üzrə texnologiyalar, eləcə də inteqrasiya olunmuş texniki xidmətləri təqdim edirlər.

Baş ofisi Budapeştdə yerləşən "MOL Group" beynəlxalq, inteqrasiya olunmuş neft, qaz, neft-kimya və pərakəndə satış şirkətidir. Bir əsrdən artıq təcrübəyə və 24 min nəfərlik işçi qüvvəsinə malik şirkət 30-dan çox ölkədə fəaliyyət göstərir. "Azəri-Çıraq-Günəşli" layihəsinin 3-cü ən böyük səhmdarı olan şirkət Azərbaycan da daxil olmaqla 9 ölkədə kəşfiyyat və hasilat aktivlərinə malikdir.

Rusiya Federasiyasının "Tatneft" şirkəti də sərgidə təmsil olunur. Şirkət neft və qaz hasilatı, neft emalı və kimyası, yanacaqdoldurma məntəqələri şəbəkəsi, elektrik enerjisi, neft-qaz sənayesi üçün avadanlıqların istehsalı ilə məşğul olur və sərgidə öz xidmətlərini ziyarətçilərə təqdim edir.

Çin Xalq Respublikasının "Sinopec SJ Petroleum Machınery Co." şirkəti 1941-ci ildə təsis edilib. Şirkət əsasən quruda və dənizdə neft-qaz yataqlarının kəşfiyyatı, hasilatı avadanlıqlarının tədqiqatı, istehsalı və servisi ilə məşğul olur. Həmçinin müştərilərə neft-qaz yataqlarının kəşfiyyatı və hasilatı avadanlıqları üçün inteqrasiya olunmuş həllər təqdim edir.

"Uzbekneftegaz" ASC Özbəkistanın bu sahədə aparıcı şirkətidir. O, hasilatın artırılması, daxili bazarın təchizatı və ixracın genişləndirilməsi istiqamətlərində fəaliyyət göstərir. Şirkət yüksəkdəyərli məhsul istehsalına, emalına və xarici investisiyaların cəlbinə önəm verir. 2020-2030-cu illəri əhatə edən strategiyası modernləşmə, enerji təhlükəsizliyi və innovasiyaya əsaslanan "Uzbekneftegaz" Özbəkistanın enerji müstəqilliyini və iqtisadi inkişafını gücləndirmək məqsədilə texnoloji yeniliklərin formalaşmasında əsas rol oynayır.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti dünyanın ən sürətlə inkişaf edən bərpaolunan enerji şirkətlərindən biridir. Qlobal təmiz enerji lideri kimi "Masdar" Günəş, külək, geotermal, enerjisaxlama batareyası və "yaşıl hidrogen" sahələrində layihələr həyata keçirərək enerji keçidini sürətləndirməyə çalışır. 2006-cı ildən etibarən 40-dan çox ölkədə layihələrə sərmayə qoyan şirkət təmiz və sərfəli enerji təminatına töhfə verir. Şirkət 2030-cu ilədək 100 QVt-lıq bərpaolunan enerji portfeli yaratmağı və "yaşıl hidrogen" istehsalında lider olmağı hədəfləyir. Qeyd edək ki, "Masdar" şirkəti 230 meqavat gücündə Qaradağ Günəş-Elektrik Stansiyasını istifadəyə verib.

Amerika Birləşmiş Ştatlarının (ABŞ) "Schlumberger" (SLB) şirkəti enerji innovasiyalarını təşviq edən qlobal texnologiya şirkətidir. "SLB" dünyada enerji sənayesinin məhsuldarlığını, davamlılığını təmin etmək üçün qabaqcıl rəqəmsal həllər, innovativ texnologiyalar təklif edir. Şirkət 120-dən çox ölkədə fəaliyyət göstərir.

Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti bərpaolunan enerji sahəsində dünyanın qabaqcıl qurumlarından biridir. O, Azərbaycanda Qafqaz regionunun ən böyük külək-elektrik stansiyası olacaq 240 MVt gücündə Xızı-Abşeron Külək-Elektrik Stansiyası layihəsini inkişaf etdirir. "ACWA Power" 14 ölkədə 101 elektrik enerjisi və su şirinləşdirmə obyektinin tərtibatçısı, investoru və operatorudur. "ACWA Power"in 107,5 milyard ABŞ dolları dəyərindəki portfeli 78,85 QVt elektrik enerjisi və gündə 9,5 milyon kubmetr şirinləşdirilmiş su istehsal etmək gücünə malikdir.

Fransanın qlobal multienerji şirkəti olan "TotalEnergies" metan emissiyalarının monitorinqi və azaldılması sahəsində innovativ həllər təqdim edir. Belə ki, şirkət idarə etdiyi bütün hasilat obyektlərində metan sızmalarını fasiləsiz və real vaxt rejimində aşkar edən avadanlıqlar yerləşdirir. Bu avadanlıq "Metan Daimi Monitorinq Layihəsi" adlanır və ilk dəfə olaraq "Caspian Oil & Gas" sərgisində "TotalEnergies"in stendində təqdim edilir.

* * *

Sonra Prezident İlham Əliyev sərginin Xatirə kitabını imzaladı.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim edildi.

Sonda birgə foto çəkdirildi.

# Prezident İlham Əliyev qəbul edib

## Türkiyənin energetika və təbii sərvətlər nazirini



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana "Bakı Enerji Həftəsi" ilə bağlı göndərdiyi məktuba görə təşəkkürünü bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən Alparslan Bayraktar bir neçə gün əvvəl Laçında keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladı və həmin tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin bu sahədə beynəlxalq əməkdaşlığın qurulması, əlaqələrin genişləndirilməsi və yeni yanaşmaların tətbiqi baxımından rolu vurğulandı.

Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi və liderliyi ilə ölkələrimizin bir çox qlobal layihələr həyata keçirdikləri, həmçinin Türkiyə Petrolları (TPAO), BOTAŞ-la SOCAR arasında uğurlu əməkdaşlığın qurulması məmnunluqla qeyd edildi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə böyük sərmayədar olduğu vurğulandı. Söhbət zamanı ölkəmizdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində mühüm layihələrin icra olunduğu qeyd edildi, Azərbaycan və Türkiyənin bu istiqamətdə əməkdaşlığının bundan sonra daha da genişlənəcəyinə ümidvarlıq bildirildi. Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğu vurğulandı və bu xüsusda gələcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

## Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədrini



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlığın bir çox sahələrdə, o cümlədən enerji və bərpaolunan enerji sahələrində inkişafından məmnunluq bildirildi.

Ölkəmizlə "ACWA Power" şirkəti arasında uğurlu layihələrin həyata keçirildiyi vurğulandı. Bu şirkətin Qafqaz regionunun ən böyük külək-elektrik stansiyası olacaq Xızı-Abşeron külək-elektrik stansiyası layihəsini inkişaf etdirməsinin əhəmiyyətinə toxunuldu.

Vurğulandı ki, "ACWA Power" ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması üzrə tenderin qalibi olub və hökumətlə müqavilə şərtlərinin razılaşdırılmasının son mərhələsidir. Qısa müddət ərzində son müqavilə sənədlərinin imzalanması və suyun duzsuzlaşdırılması zavodunun tikintisinə başlanılması ilə bağlı hazırlıq işləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, həmçinin Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin yüksək səviyyədə keçirilməsi ilə bağlı təbriklərini çatdırdı.

Məhəmməd Əbunəyyan Azərbaycan Prezidentinin və Səudiyyə Ərəbistanı Kralının dünyada baş verən hadisələrlə bağlı böyük liderlik nümunəsi göstərdiklərini dedi. O, Səudiyyə Ərəbistanı Krallığından ölkəmizə yatırılan investisiyalara dövlətimizin başçısı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.

## "Schlumberger Overseas S.A" şirkətinin baş icraçı direktorunu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də ABŞ-nin "Schlumberger Overseas S.A" (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin əhəmiyyətinə toxunularaq, bu tədbirlər zamanı qlobal enerji məsələləri ilə bağlı müzakirələrin aparıldığı vurğulandı.

"Schlumberger Overseas S.A" şirkətinin Azərbaycanda uğurla həyata keçirdiyi layihələr qeyd edildi, şirkətin 30 il ərzində Azərbaycanda neft və qaz yataqlarının işlənilməsində iştirakının, o cümlədən SOCAR və BP ilə əməkdaşlığının davam etdirilməsinin vacibliyi bildirildi. Görüşdə şirkət tərəfindən "SOCAR Green" şirkəti ilə birlikdə Kəlbəcər və Laçın bölgələrində geotermal enerji mənbələrinin istifadəsi ilə bağlı potensial layihənin həyata keçirilməsi barədə məlumat verildi.

Söhbət zamanı ölkəmizlə bu şirkət arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## Pakistanın neft nazirini



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bir neçə gün əvvəl Laçında Azərbaycan, Türkiyə prezidentlərinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü xatırlandı, bu tədbirin ölkələrimiz arasında qardaşlığın və həmrəyliyin nümayişi olduğu bildirildi.

Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın enerji sahəsini də əhatə etdiyi vurğulandı. "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəminə toxunularaq, enerji sahəsində qlobal səviyyədə əməkdaşlığın genişləndirilməsi baxımından bu mühüm tədbirlərin rolu qeyd edildi. Görüşdə ölkələrimiz arasında enerji, həmçinin bərpaolunan enerji sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair müzakirələr aparıldı.

Qonaq Azərbaycan şirkətlərini Pakistanın enerji sektorunun imkanları ilə tanış olmağa dəvət etdi.

## "ExxonMobil" şirkətinin vitse-prezidentini



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Con Ardill "ExxonMobil" şirkətinin rəhbəri Darren Vudsun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını şirkətin rəhbərinə çatdırmağı xahiş etdi.

Görüşdə "ExxonMobil" şirkətinin Azərbaycanda uzunmüddətli fəaliyyəti, o cümlədən "Azəri-Çıraq-Günəşli" layihəsində səhmdar qismində iştirakı qeyd olundu. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə "ExxonMobil" arasında bu gün imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə Azərbaycan Prezidentinə məlumat verildi.

Qonaqlar Azərbaycanda neft-qaz, enerji sahələrinin inkişafı üçün mövcud olan münbit şəraiti xüsusilə qeyd etdilər.

# Biz qalibik!

## Döyüş meydanında, siyasi müstəvidə, həm də idman arenalarında...

### Prezident İlham Əliyevin çıxışı



- Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatı dünən başa çatdı. Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazanmışdır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var.

Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var. Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından Sizə təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

Azərbaycan Minifutbol Federasiyasının prezidenti **Orxan Məmmədov** dedi:

- Möhtərəm cənab Prezident, mən şəxsən bütün federasiya adından, futbolçular adından, məşqçi heyəti adından Sizə öz dərin təşəkkürümü bildirirəm ki, bu gün bizi qəbul edirsiniz. Doğrudan da, bu gün bizim üçün həm şərəfli, həm də uğurlu bir gündür. Biz doğma divarlar arasında dünya çempionu olmuşuq. Bu hər bir futbolçu üçün çox önəmli bir haldır. Sizə deyə bilərəm ki, bütün oyunlar zamanı bütün azarkeşlər bizi dəstəkləyirdi. Xalqımız televizorun önündə bizi dəstəkləyirdi. Əlbəttə ki, futbolçular da çox böyük zəhmət çəkdilər və hər bir oyunda bir ailə kimi ruhlarını, canlarını qoydular. Doğrudan da, azarkeşlər onları irəli səsləyirdi.

Möhtərəm cənab Prezident, əlbəttə ki, Sizin idmana, gəncliyə, ümumiyyətlə, bütün futbolsevərlərə, minifutbolsevərlərə verdiyiniz dəstək bizim uğurumuzun əsas sütunu idi. Bunu hər bir futbolçu bilir və Sizə dərin təşəkkürümüzü bildiririk.

Həmçinin Sizin sahibkarlara göstərdiyiniz dəstək göz önündədir. Onlar futbolun bu növünə yatırımlar edirlər. Bizim çox güclü çempionatımız var. Sponsorlar oraya dəstək göstərir. Əlbəttə ki, biz bu çempionatdan ən güclüləri yığaraq bu gün milli komanda yaratmışıq. Onlar həm Avropa çempionu, həm də dünya çempionu oldular. Son dəfə Siz bizi qəbul edərkən Sizə söz verdik ki, çalışacağıq yeni titullar, yeni uğurlar qazanaq. Bizim üçün çox şərəflidir ki, bu dünya kubokunu Sizin önünüzə gətiririk.




Sizə çox dərin təşəkkürümü bildirirəm, bu qələbəni biz xalqımıza, Vətənimizə, Sizə və hörmətli Mehriban xanıma həsr edirik. Çox sağ olun, Sizə çox təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

Milli komandanın baş məşqçisi **Elşad Quliyev:** Hörmətli Prezidentimiz, öz adımdan, komandanın adından təşəkkür edirəm ki, bizi dəvət etmisiniz. Biz 2022-ci ildə də Avropa çempionu olanda Siz bizimlə səmimi söhbət etdiniz və tapşırıqlarınızı verdiniz. O gündən sonra da biz çalışırdıq ki, yeni nailiyyətlər əldə edək. İnşallah, qismət oldu, dünən dünya çempionu olduq. Bunun üçün Sizə çoxlu təşəkkür edirik və xalqımıza, federasiyamıza "Çox sağ ol!" deyirik. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

Dünya Minifutbol Federasiyasının prezidenti **Filip Juda** dedi:

- Möhtərəm cənab Prezident, Azərbaycanı belə möhtəşəm təmsil edən bütün bu şəxslərlə birlikdə burada olmaq mənim üçün, həqiqətən də, şərəfdir. Sizin qarşınızda onları bu böyük uğur münasibətilə bir daha təbrik etmək və bu turniri Azərbaycana gətirdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Bu, zənnimcə, mənim Bakıya 8-ci səfərimdir. İlk dəfə 2017-ci ildə burada olmuşam, Azərbaycan Minifutbol Federasiyasından olan bu insanlarla görüşmüşəm. Deməliyəm ki, onlar, həqiqətən də, böyük iş gördülər. Onlar Avropa çempionluğunu, dünya çempionluğunu qazandılar. Mən Sizə növbəti çempionatlarda uğurlar arzulayıram. Bilirəm ki, Sizin qrafikiniz çox məşğuldur. Sizi bu gün başlayan "Bakı Enerji Həftəsi"ndə gördüm. Bizimlə və bütün bu şəxslərlə görüşmək imkanına görə təşəkkür edirəm. Ümidvaram ki, bu uğur sayəsində Azərbaycanda yeni nəsil minifutbolçular meydana çıxacaq. Çünki, şübhəsiz ki, bu nailiyyətiniz Azərbaycanda minifutbolun inkişafına, xalqa və bütün cəmiyyətə müsbət töhfə verir.

Bildiyimə görə, Azərbaycan Minifutbol Federasiyası ölkədə minifutbol arenasına sahib olmaq üçün böyük səylər göstərir. Ümidvaram ki, Dünya Minifutbol Federasiyası və yerli hökumətlə birlikdə bu, uğurlu bir layihə olacaq. Çünki, şübhəsiz ki, bu insanlar 2022-ci ildə Avropa çempionluğu, 2025-ci ildə dünya çempionluğunu qazanmaqla buna, həqiqətən də, layiqdirlər. Onların burada cənab Prezidentin qarşısında olmaqları ilə fəxr edirəm.

Dəvətə görə təşəkkür edirəm, sizin hamınıza uğurlar arzulayıram.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram. Federasiya adından Azərbaycanda minifutbolun inkişafına verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Bu dəstək bizim üçün, həqiqətən də, qiymətlidir və biz Azərbaycanın beynəlxalq idman institutları ilə əməkdaşlığını yüksək qiymətləndiririk.

Əminəm ki, bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək.

Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır.

Bir daha sizi təbrik edirəm.



* * *

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Slovakiya ilə Azərbaycan arasında münasibətlərin uzun illərdir dostluq və qarşılıqlı hörmət əsasında inkişaf etdiyini, gələcək əməkdaşlıq üçün böyük potensial yaratdığını məmnuniyyətlə qeyd edirəm. Strateji tərəfdaşlığımızın bu əlaqələri daha da möhkəmləndirərək yeni imkanlar yaratmasını yüksək qiymətləndirirəm.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün ölkənizə səfərimi və şəxsən görüşümüzü xoş duyğularla xatırlayıram. Sizi Slovakiyada eyni yüksək qonaqpərvərliklə salamlamaq fürsətini səbirsizliklə gözləyirəm. Əminəm ki, görüşümüz ikitərəfli əlaqələrimizin uğurlu inkişafına mühüm təkan verəcəkdir.

Zati-aliləri, Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, əmin-amanlıq, sabitlik, uğurlar və rifah arzulayıram.

Bratislavada görüşümüzü və səmərəli müzakirələrimizi səbirsizliklə gözləyirəm.

Zati-alinizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Dost Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasındakı möhkəm əlaqələrin davamlı şəkildə inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri!

Uruqvay Şərq Respublikasının xalqı və hökuməti adından və şəxsən öz adımdan 28 May - Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, əziz xalqınıza sülh və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

Ölkələrimiz arasında çox yaxşı ikitərəfli münasibətlər yaranıb və tam əminəm ki, bu münasibətlər mədəni, siyasi əməkdaşlıq zəminində möhkəmlənəcəkdir.

Cənab Prezident, fürsətdən istifadə edərək, Sizə bir daha ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Yamandu ORSİ,***
***Uruqvay Şərq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram. Sizə davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında möhkəm dostluq əlaqələrinin və qarşılıqlı hörmətin olduğunu vurğulamaqdan məmnunluq duyuram.

Mən ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığımızı bundan sonra da möhkəmləndirmək və dərinləşdirmək üçün birgə səylər göstərəcəyimizə əminəm.

Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın***
***Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Dost ölkənizin Müstəqillik Gününün ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə uzun ömür, cansağlığı, müvəffəqiyyətlər, Azərbaycan Respublikasına və dost Azərbaycan xalqına davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Türk Dövlətləri Təşkilatı adından və şəxsən öz adımdan Zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Müstəqilliyinin bərpasından keçən dövr ərzində siyasi, iqtisadi və sosial sahələrdə böyük irəliləyişlərə nail olmuş Azərbaycan Respublikası Zati-alinizin müdrik siyasəti sayəsində daha da inkişaf etmiş, regional və beynəlxalq məsələlərdə fəal iştirakı ilə seçilmiş, xüsusilə də sülhün, sabitliyin, əməkdaşlığın və rifahın təşviqində göstərdiyiniz səylərlə regionun lider ölkəsinə çevrilmişdir.

Türk Dövlətləri Təşkilatına daim göstərdiyiniz hərtərəfli dəstəyə və təşəbbüslərinizə görə Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, bu il Azərbaycanda keçiriləcək Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşü əməkdaşlığımızı və türk dövlətləri arasındakı həmrəyliyi daha da möhkəmləndirəcəkdir.

Fürsətdən istifadə edərək, bu əlamətdar bayram münasibətilə Zati-alinizə davamlı uğurlar, bütün Azərbaycan xalqına rifah, firavanlıq və xoşbəxtlik arzulayıram.

*Dərin hörmətlə,*

***Kubanıçbek ÖMÜRALIYEV,***
***Türk Dövlətləri Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Əlamətdar bayram - 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram Azərbaycanın milli dövlətçiliyinin dirçəlişinin, ölkənin davamlı sosial-iqtisadi inkişafının və onun beynəlxalq arenada nüfuzunun möhkəmlənməsinin rəmzidir.

Bu gün qarşımızda öz gələcəyini inamla quran, ərazi bütövlüyünü bərpa etmiş və Qafqaz regionunda sabitliyin, tərəqqinin təmin olunmasında getdikcə daha çox mühüm rol oynayan qalib suveren Azərbaycan dayanır.

Əminəm ki, qarşıdakı illər ölkələrimiz arasında çoxplanlı əməkdaşlığın və ənənəvi dostluq əlaqələrinin bundan sonra da möhkəmlənməsində əlavə perspektivlər açacaqdır.

Möhtərəm cənab Prezident, bu bayram münasibətilə Sizə möhkəm cansağlığı, əmin-amanlıq və çoxşaxəli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***İlyas UMAXANOV,***
***Rusiya Federasiyasının senatoru***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

MDB Parlamentlərarası Assambleya Şurasının - Müstəqil Dövlətlər Birliyi iştirakçılarının adından 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Bu əlamətdar gün təkcə azadlığın, suverenliyin və ərazi bütövlüyünün bərpasının deyil, həm də Azərbaycan xalqının birliyinin, onun ölkənin tarixi və mədəniyyəti ilə qürur duymasının rəmzidir. Bu gün respublika beynəlxalq arenada öz mövqelərini möhkəmləndirərək və ölkənin tərəqqisinə xidmət edən mühüm layihələri həyata keçirərək irəliyə doğru inamla addımlayır.

Sizə - görkəmli dövlət xadiminə möhkəm cansağlığı, Azərbaycan Respublikasının əmin-amanlığı və onun vətəndaşlarının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurası Baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

# "Bakı Enerji Həftəsi" beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın tutduğu yerin göstəricisidir

## "Bakı Enerji Həftəsi"nin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi "Bakı Enerji Həftəsi"nin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Bu mühüm tədbir enerji sahəsində nailiyyətlərimizin təqdimatı və gələcək prioritetlərin müzakirəsi üçün önəmli platforma rolunu oynayır. Biz artıq sayca 30-cu tədbirdə - yubiley tədbirində iştirak edirik ki, bu da onun uğurlu tarixini və əhəmiyyətini bir daha təsdiqləyir.

"Bakı Enerji Həftəsi" Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilmişdir. Enerji diplomatiyasının inkişafına, strateji tərəfdaşlıqlar qurulmasına və qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə töhfə verən bu tədbir ilk milli sərgi brendimiz kimi tarixə düşmüşdür.

Ötən illər ərzində bu təşəbbüs enerji sahəsində qlobal meyillərə uyğun şəkildə genişlənmiş və "Bakı Enerji Həftəsi" formatını almışdır. Ənənəvi enerji mənbələrindən bərpaolunan enerjiyə qədər geniş məzmunda məsələlərin müzakirə edildiyi "Bakı Enerji Həftəsi" artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanınır.

Eyni zamanda bu tədbir Azərbaycanın enerji sahəsində keçdiyi uğurlu yolun, beynəlxalq nüfuzunun və uzaqgörən strateji baxışının bariz təzahürüdür. Enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və "yaşıl enerji" üzrə davamlı inkişaf bu gün də ölkəmizin əsas prioritetləri sırasındadır. Bu istiqamətdə görülən işlər qlobal enerji bazarında Azərbaycanın etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini daha da gücləndirir. Tədbirin geniş miqyası və beynəlxalq əhatə dairəsi də bunu təsdiq edir. Dünyanın səksən ölkəsindən şirkətlərin iştirak etdiyi "Bakı Enerji Həftəsi" beynəlxalq enerji əməkdaşlığında Azərbaycanın tutduğu yerin göstəricisidir.

İşğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonası kimi inkişafı isə dayanıqlı enerji strategiyasının əsas istiqamətidir. Uğurlu strateji yanaşmalar enerji sektorunda Azərbaycanın davamlı inkişafı üçün yeni imkanlar yaradır. Həyata keçirilən təşəbbüslər həmçinin ətraf mühitin qorunmasına məsuliyyətli münasibətimizi və enerji sahəsində liderlik iddiamızı əks etdirir.

Əminəm ki, "Bakı Enerji Həftəsi" öz zəngin ənənəsinə və innovasiyaya açıqlıq prinsipinə sadiq qalaraq, beynəlxalq dialoqun dərinləşməsinə, yeni tərəfdaşlıqlar qurulmasına və faydalı əməkdaşlığın inkişafına mühüm töhfə verəcəkdir.

Bugünkü tədbirdə nümayiş etdirilən sərgilər münasibətilə təşkilatçıları və bütün iştirakçıları bir daha təbrik edir, hər birinizə səmərəli müzakirələr, uğurlu layihələr və davamlı əməkdaşlıq arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2025-ci il*

# Azərbaycan-İtaliya əlaqələrini daha da dərinləşdirmək əzmindəyik

## İtaliya Respublikasının Prezidenti zati-aliləri cənab Sercio Mattarellaya



Hörmətli cənab Prezident!

2 İyun Respublika Günü münasibətilə Sizi və Sizin simanızda dost xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Dostluq, qarşılıqlı hörmət və etimad üzərində qurulmuş Azərbaycan-İtaliya dövlətlərarası münasibətlərinin hazırda dinamik və hərtərəfli inkişaf etməsi bizi sevindirir. Bu gün ölkələrimiz iqtisadiyyat, ticarət, energetika, sərmayə, müdafiə, humanitar, o cümlədən elm, təhsil və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət göstərir, əməkdaşlığımız ildən-ilə yeni məzmunla zənginləşir. Azərbaycan etibarlı strateji tərəfdaşı olan İtaliya ilə münasibətlərin bütün sahələrdə inkişafına xüsusi əhəmiyyət verir. Siyasi əlaqələrimizin intensivliyi, ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu bunun üçün yaxşı zəmin yaradır.

Ən iri ticarət tərəfdaşımız olan İtaliyanı təmsil edən şirkətlər Azərbaycanda uzun illərdən bəri uğurla fəaliyyət göstərir və ikitərəfli münasibətlərimizin dərinləşməsində xüsusi rol oynayır. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərində ölkənizin şirkətlərinin yer alması tərəfdaşlığımızın yüksək səviyyəsindən xəbər verir.

Enerji sektorunda əməkdaşlıq Azərbaycan-İtaliya münasibətlərinin aparıcı istiqamətlərindən biridir. Bu sahədə geniş gündəliyə malik səmərəli işbirliyimiz, "Cənub qaz dəhlizi" çərçivəsində birgə fəaliyyətimiz Avropanın enerji təhlükəsizliyinin təminatına böyük töhfə verir.

Humanitar əlaqələrimizin də yüksələn xətt üzrə inkişafı məmnunluq doğurur. İtaliyanın beş aparıcı universiteti ilə birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universiteti əməkdaşlığımızın şaxələndirilməsinin gözəl nümunəsidir.

Mən ölkələrimiz arasında artan siyasi dialoqu yüksək qiymətləndirirəm. Bu gün biz qarşılıqlı fəaliyyətimizin böyük potensialından yararlanaraq Azərbaycan-İtaliya əlaqələrini daha da dərinləşdirmək əzmindəyik.

Əminəm ki, ölkələrimiz arasında dostluğun və çoxölçülü strateji tərəfdaşlığın möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2025-ci il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 15-ci və 26-cı bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 121-VIIQD nömrəli və 2025-ci il 18 mart tarixli 161-VIIQD nömrəli qanunları) 18.67-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci abzasda "Pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnaməsinin, idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının" sözləri "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatı haqqında şəhadətnamənin və bitki və bitkiçilik məhsullarının ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının" sözləri ilə əvəz edilsin;

1.2. 18.67.1-ci maddədə "Pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnaməsinin" sözləri "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatı haqqında şəhadətnamənin" sözləri ilə əvəz edilsin;

1.3. 18.67.2-ci maddə ləğv edilsin;

1.4. 18.67.3-cü maddəyə "Fitosanitar" sözündən sonra "(təkrar ixrac fitosanitar)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 655 (Cild I); 2024, № 4, maddə 365) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.0.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.13-cü maddə əlavə edilsin:

"1.0.13. daxili karantin sertifikatı - ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə fiziki və hüquqi şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada verilən rəsmi sənəd.";

2.2. aşağıdakı məzmunda 7.1.6-1-ci maddə əlavə edilsin:

"7.1.6-1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi qaydasını müəyyən etmək;";

2.3. 14-cü maddə üzrə:

2.3.1. adına "İxrac" sözündən sonra "(təkrar ixrac)" sözləri əlavə edilsin;

2.3.2. 14.1-ci maddəyə "ixrac" sözündən sonra "(təkrar ixrac)" sözləri, "fitosanitar" sözündən sonra "(təkrar ixrac fitosanitar)" sözləri əlavə edilsin;

2.3.3. 14.3-cü maddəyə "İxrac" sözündən sonra "(təkrar ixrac)" sözləri, "fitosanitar" sözündən sonra "(təkrar ixrac fitosanitar)" sözləri əlavə edilsin;

2.4. 20-ci maddə üzrə:

2.4.1. 20.3-cü maddədə "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

2.4.2. 20.4-cü maddədə "qeydiyyata" sözü "bu Qanuna və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

2.4.3. 20.6-cı maddənin birinci cümləsində "qeydiyyat" sözü "dövlət qeydiyyatının" sözləri ilə, "müəyyən edilmiş qaydada yenidən qeydiyyatdan" sözləri "yenidən dövlət qeydiyyatından" sözləri ilə əvəz edilsin;

2.4.4. aşağıdakı məzmunda 20.7-ci maddə əlavə edilsin:

"20.7. Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatı haqqında şəhadətnamə bu Qanuna və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilir.";

2.5. 21.2-ci maddə ləğv edilsin;

2.6. 28-ci maddə üzrə:

2.6.1. 28.1.2-ci maddədə "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

2.6.2. 28.1.11-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 28.1.12-ci maddə əlavə edilsin:

"28.1.12. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin istehsalı və idxalını lisenziyalaşdırmaq.";

2.7. 29.3-cü və 29.5-ci maddələrdə "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

2.8. 34-cü maddə üzrə:

2.8.1. 34.3.1-ci maddəyə "qeydiyyatı" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin;

2.8.2. 34.3.3-cü maddəyə "fitosanitar" sözündən sonra "(təkrar ixrac)" sözləri əlavə edilsin və həmin maddədən "idxal karantin icazələrinin," sözləri çıxarılsın;

2.8.3. 34.4-cü maddədə "Pestisidlərə, bioloji preparatlara və aqrokimyəvi maddələrə qeydiyyat şəhadətnamələrinin, idxal karantin icazəsinin və fitosanitar sertifikatlarının" sözləri "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət qeydiyyatı haqqında şəhadətnamənin və fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatların" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Daxili karantin sertifikatının verilməsinə görə dövlət rüsumu tutulmur.".

**Maddə 3.** "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 133 (Cild I) 35.1.9-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 35.1.10-cu maddə əlavə edilsin:

"35.1.10. dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsində nəzərdə tutulan müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilmədikdə.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

# "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 10 avqust tarixli 437 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 645 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri "Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini" sözləri ilə əvəz edilsin;

1.2. "Azərbaycan Respublikası energetika nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini";

1.3. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" abzası ləğv edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişikliklər barədə Avstriya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2025-ci il*

# "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.13-cü maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.0.13-cü maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 7.1.6-1-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətləri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.4. həmin Qanunun 1.0.13-cü maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

1.5. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun35.1.10-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 35.1.10-cu maddəsində "orqan (qurum)" dedikdə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.13-cü və 7.1.6-1-ci maddələrinə uyğun olaraq, bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanunundanirəli gələn digər məsələləri həll etsin.

3. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 667 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "Qanununun" sözündən sonra"1.0.13-cü (hər iki halda)," sözləri əlavə edilsin;

3.2. 2.2-ci bəndə "7.1.6-cı," sözlərindən sonra "7.1.6-1-ci," sözləri əlavə edilsin;

3.3. 2.9-cu bəndə "Qanunun" sözündən sonra "1.0.13-cü maddəsində (ikinci halda)," sözləri əlavə edilsin;

3.4. 2.10-cu bəndə "Qanunun" sözündən sonra "1.0.13-cü (birinci halda)," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67 (Cild I); 2024, № 8, maddə 938, № 10, maddə 1122) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 7-ci hissəsinin beşinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd 5 iş günü müddətində Nazirliyə təqdim edilmədikdə, Nazirlik tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində göstərilən tədbirlər görülür.".

5. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bəndə ikinci halda "fitosanitar" sözündən sonra ", daxili karantin" sözləri əlavə edilsin;

5.2. 2.0.6-cı və 3.0.7-ci yarımbəndlərə "baytarlıq" sözündən sonra ", daxili karantin" sözləri əlavə edilsin;

5.3. 3.0.33-18-ci yarımbəndə "sınağını," sözündən sonra "dövlət" sözü əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2311 (Cild I); 2024, № 6 (I kitab), maddə 661) ilə təsdiq edilmiş "Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.10-cu bəndinin ikinci cümləsi üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavəedilsin:

"Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydanın 2.9-cu bəndində nəzərdə tutulan müddətdə müvafiq quruma təqdim edilmədikdə, müvafiq qurum tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində göstərilmiş tədbirlər görülür.".

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I);2024, № 5 (I kitab), maddə 515; 2025, № 1, maddə 23) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.5-ci bəndinə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Qaydanın 2.5-ci bəndinin ikinci cümləsində nəzərdə tutulmuş müddətdə Agentliyə təqdim edilmədikdə, Agentlik tərəfindən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsində göstərilmiş tədbirlər görülür.".

8. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2617 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nın 3.3-cü bəndinin ikinci cümləsində "eyni zamanda ərizəçiyə" sözləri "ərizəçiyə eyni zamanda" sözləri ilə əvəz edilsin.

9. "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə"Azərbaycan Respublikası Prezidentinin 2024-cüil 15 fevral tarixli 1 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 149; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 370 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1.1.1-ci bənddə ikinci halda "maddəsində" sözü ", 35.1.10-cu maddələrində" sözləri ilə əvəz edilsin;

9.2. 1.12-ci bəndə "35.1.8-ci," sözlərindən sonra "35.1.10-cu," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyun 2025-ci il*

# Baş nazir Əli Əsədov Pakistanın neft naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliklə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Pakistan dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə dinamik inkişafından məmnunluq ifadə olunub.

"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən tədbirlərin beynəlxalq enerji əməkdaşlığının təşviqi baxımından əhəmiyyəti qeyd edilib.

Görüş zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq imkanları müzakirə olunub, perspektivli neft-qaz layihələri nəzərdən keçirilib.

# Nazir Vilayət Eyvazov Bərdədə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 1-də və 2-də Bərdə Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Bərdə şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra polis şöbəsinin inzibati binasında Bərdə, Ağdam, Ağcabədi, Şuşa, Laçın, Tərtər, Zərdab şəhər və rayonlarından qəbula gələn 397 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 37 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 328 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***"Azərbaycan"***

# Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki infrastrukturuna ziyan vurması ilə bağlı sənədlər məhkəmədə tədqiq olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyunun 2-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə 2020-ci ildə baş vermiş 44 günlük müharibə dövründə Azərbaycanın mülki infrastrukturuna ziyan vurulması, mülki şəxslərin öldürülməsi ilə bağlı hadisə yerinə baxış protokolları və ekspert rəyləri baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin iştirakı ilə tədqiq olunub.

Əvvəlcə müharibə zamanı Ağcabədi rayonunun atəşə tutulması faktları üzrə sənədlər tədqiq edilib. Bildirilib ki, 2020-ci il sentyabrın 27-də saat 6 radələrindən Ermənistan silahlı qüvvələri tərəfindən başlamış silahlı hücumlar və hərbi təcavüz nəticəsində Ağcabədi rayonu üzrə 1 mülki şəxs qəsdən öldürülüb, 19 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət almış şəxslərdən 5-i qadın, 14-ü isə kişi, o cümlədən 2-si azyaşlıdır.

Silahlı hücumlar və hərbi təcavüz nəticəsində Ağcabədi rayonu üzrə 536 mülki təyinatlı tikiliyə, 17 nəqliyyat vasitəsinə və 50 fermer təsərrüfatına xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Ağdam rayonunun atəşə tutulması ilə bağlı tədqiq edilən sənədlərə əsasən, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək ağır artilleriya qurğuları hesab olunan "T-64", "T-72", "T-80", "T-90" tipli tanklardan, "2S3 Akasiya", "2S1 Qvozdika" və digər özüyeriyən artilleriya qurğularından, "2A36 Giasint B", "D-20", "D-30", "D-44", "D-81" ("D-81M") markalı toplardan, mina və qumbaraatanlardan, "BM-21" ("Qrad"), eləcə də digər markalı iriçaplı silahlardan atəşlər açılaraq Ağdam rayonunda vahid niyyətlə ümumilikdə 7 mülki şəxs qəsdən öldürülüb, 46 mülki şəxsə qəsdən xəsarət yetirilib.

Ağdam rayonu ərazisində dövlət mülkiyyətinə, 2098 fiziki və 2 hüquqi şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Digər sənədlərə əsasən, 44 günlük müharibə dövründə Beyləqan rayonunun atəşə tutulması nəticəsində 2 mülki şəxs həlak olub, 5 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Rayonda 73 mülki təyinatlı tikiliyə, 3 nəqliyyat vasitəsinə ziyan vurulub. 73 mülki təyinatlı tikilidən 62-si fərdi yaşayış evi, 10-u sahibkarlıq sahəsi, 1-i isə inzibati binadır.

Bərdə ilə bağlı baxış protokollarına əsasən, rayon Ermənistan silahlı qüvvələri tərəfindən "Qrad" markalı 122 millimetr çaplı "G2000", "Smerç" markalı 300 millimetr çaplı "9M528" reaktiv yaylım atəş sistemlərindən atəşə tutulub. Nəticədə 2020-ci il oktyabrın 5-dən noyabrın 7-dək Bərdə rayonunda ümumilikdə 29 mülki şəxs qəsdən öldürülüb, 112 mülki şəxsə xəsarətlər yetirilib. Həmin hücumlar zamanı Bərdə rayonu ərazisində dövlət mülkiyyətinə, 333 fiziki və 2 hüquqi şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Sənədlərə əsasən, Füzuli rayonunun atəşə tutulması nəticəsində 3 dinc şəxs qəsdən öldürülüb, ümumilikdə 17 mülki şəxs qəsdən xəsarət yetirilməklə yaralanıb.

Füzuli rayonu ərazisində dövlət mülkiyyətinə və 376 fiziki şəxsə xüsusilə külli miqdarda maddi ziyan vurulub.

Bildirilib ki, 44 günlük müharibə zamanı Goranboy rayonunda və Naftalan şəhərində Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raket və digər partlayıcı qurğuların partlaması nəticəsində 8 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. 368 nəfərin əmlakına, 7 nəfərin avtomobilinə zərər dəyib. Daha 8 nəfərin isə qeyri-yaşayış sahəsinə zərər vurulub.

Daha sonra Mingəçevir şəhərinin atəşə tutulması faktları üzrə sənədlər tədqiq edilib. Sənədlərə əsasən, müəyyən olunub ki, silahlı münaqişə zonasından tamamilə kənar coğrafi koordinatda yerləşən, Azərbaycanın ən böyük 4-cü şəhəri olan Mingəçevir, habelə həmin şəhərdə yerləşən və ölkəni elektrik enerjisi ilə təmin edən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) 2020-ci il oktyabrın 4-də saat 22 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən böyük dağıdıcı qüvvəyə malik "Smerç" reaktiv yaylım atəşli raketlərlə qəsdən hədəfə alınaraq həmin istiqamətdə atəşlər açılıb.

Müəyyən edilib ki, "Smerç" raketlərindən biri Mingəçevir şəhəri, Bozdağ küçəsi, 60 ünvanında yerləşən, 1984-cü il təvəllüdlü Bağırov Elçin Yaqub oğluna məxsus fərdi yaşayış evinin həyətyanı sahəsində inşa edilmiş darvazanın qarşısına düşərək partlayıb. Nəticədə evə, onun "Hyundai Grandeur" markalı avtomobilinə, həyətyanı sahənin qarşısında olmuş qohumu - Ağdam rayonunun Evoğlu kənd sakini, 1958-ci il təvəllüdlü Səfərov Atamoğlan Sabir oğluna məxsus "KamAz 55111" markalı yük avtomobilinə ziyan vurulub. Həmçinin Bağırov Elçin Yaqub oğlu, 1957-ci il təvəllüdlü anası Bağırova Nabat Çərkəz qızı, qohumu Səfərov Atamoğlan Sabir oğlu, eləcə də qonşuluğunda yerləşən fərdi yaşayış evinin sahibi, 2004-cü il təvəllüdlü İbrahimli Adil Müşviq oğlu bədən xəsarətləri alıblar.

Müəyyən olunub ki, hadisə yerindən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-yə olan məsafə 2800, Mingəçevir su anbarının bəndinə olan məsafə isə 5300 metrdir.

"Smerç" raketlərindən biri Mingəçevir şəhəri, Azdres qəsəbəsində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin 6 və 7-ci enerji bloklarının arasındakı boş sahəyə düşüb və asfalt örtüyü dələrək 40 santimetr dərinliyində yerə batıb, lakin xoşbəxtlikdən partlamayıb. Raketin düşdüyü yerdən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin 6-cı enerji blokunun giriş qapısınadək məsafə 19 metr, 7-ci enerji blokunun giriş qapısınadək məsafə isə 29 metrdir.

Həmçinin müəyyən edilib ki, Ermənistan silahlı qüvvələri oktyabrın 4-dən sonrakı günlərdə də Mingəçevir şəhərini qəsdən hədəfə alaraq həmin istiqamətdə raket mərmiləri atıb. Belə ki, oktyabrın 11-də saat 5 radələrində "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yerləşdiyi ərazi yenidən hədəf seçilib və atılmış raket MMC-nin inzibati binasının həyətyanı sahəsindəki parkın ərazisində çəmənlik sahəyə düşüb. Xoşbəxtlikdən raket partlamadığı üçün həlak olan və ya xəsarət alan olmayıb.

Hadisələrin baş verdiyi yerin ətraf ərazilərində hər hansı hərbi obyekt olmayıb.

Hadisələr zamanı Mingəçevirdə 45 fərdi yaşayış evinə zərər dəyib.

Daha sonra məhkəmədə müharibə zamanı Bakı-Tbilisi-Ceyhan boru kəmərinin və Cənub Qafqaz Boru Kəmərinin "Smerç" raketi ilə hədəf alınmasına dair (Yevlax rayonu və Goranboy rayonunun Goran kəndi istiqamətdə raket atılması faktları) sənədlər tədqiq edilib.

Məhkəmə prosesində 44 günlük müharibə zamanı Tərtər rayonunun ağır artilleriyadan atəşə tutulması nəticəsində mülki şəxslərin ölməsi, mülki infrastruktura, vətəndaşların əmlaklarına zərər dəyməsi üzrə sənədlər də tədqiq olunub.

Fasilədən sonra məhkəmədə zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxs Pərvin Qasımova 2020-ci il oktyabrın 4-də səhər saatlarında Gəncə şəhəri, Əziz Əliyev küçəsində yaşadıqları evə Ermənistan silahlı qüvvələri tərəfindən atılmış raket düşdüyünü deyib. Nəticədə o, görmə qabiliyyətini itirib, üzündən, qollarından və bədəninin digər hissələrindən xəsarətlər alıb. Hadisə zamanı onun evdə olan anası da yaralanıb.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş şəxs hadisə zamanı 3 yaşlı və 4 aylıq qızlarının evdə olduğunu, böyük qızının hələ də psixoloji sarsıntılar yaşadığını söyləyərək deyib: "Göydən təyyarə keçəndə elə bilir evə raket düşəcək. Fişəng atılanda qorxur, əsir".

Zərərçəkmiş şəxs İradə Qasımova qızı P.Qasımovanın dediklərini təsdiqləyərək hadisə zamanı huşunu itirdiyini söyləyib. O, xəsarətlərə görə müalicəsinin hələ də davam etdiyini söyləyib.

"Böyük nəvəm hələ də qorxu içərisindədir. Deyir ki, evimizə yenə raket atacaqlar? Deyirəm ay bala, daha heç nə yoxdur", - deyə İ.Qasımova Bakı şəhərinin rayon məhkəmələrində Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təranə Məmmədovanın suallarını cavablandıran zaman bildirib.

Zərərçəkmiş şəxs Qoşqar Xəlilov isə övladları - Xəlilli Orxan Qoşqar oğlunun və Əmrahlı Məryəm Qoşqar qızının hüquqi varisi qismində tanındığını diqqətə çatdırıb. O deyib ki, 2020-ci il oktyabrın 17-də saat 1 radələrində Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya ilə atəşə tutularkən raket mərmisinin M.Hacıyev küçəsində yerləşən evinin yaxınlığına düşüb partlaması nəticəsində həmin evdə yaşayan oğlu Orxan, qızı Məryəm, keçmiş həyat yoldaşı Xatirə Qəhrəmanova, qaynı qızı Ləman həyatlarını itiriblər.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Q.Xəlilov həmin ərazidə hərbi təyinatlı hər hansı obyektin olmadığını da söyləyib.

Zərərçəkmiş şəxs Xosrov Əjdərov baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarına cavabında deyib ki, 2020-ci il oktyabrın 2-də saat 20 radələrində o, dostu Rüfət Vəliyevlə birlikdə Tərtər Rayon Polis Şöbəsinin inzibati binasının qarşısında avtomobillə hərəkətdə olan zaman Ermənistan silahlı qüvvələrinin atdığı raketlərdən biri onların avtomobilinin yaxınlığına düşüb. Nəticədə o yaralanıb.

Zərərçəkmiş Şamama Quliyeva Ağdam rayonunun Bənövşələr qəsəbəsində 2020-ci il oktyabrın 19-da günorta saatlarında Ermənistan silahlı qüvvələrinin açdığı artilleriya atəşi nəticəsində özünün, qızı Maya Quliyevanın və hərbi jurnalist Anar Şuşalının (Anar Həsənov, həmin vaxt AZTV-də çalışıb - red.) yaralandığını bildirib. Hadisə zamanı onun evinə də zərər dəyib.

"Müharibəni mülki şəxslərə qarşı aparırlar? Qocaları, körpələri öldürmək müharibə deyil. Sizin məqsədiniz azərbaycanlıları məhv etmək idi", - deyə Ş.Quliyeva ifadə verərkən üzünü təqsirləndirilən şəxslərə tutaraq bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş şəxs həmin vaxt cəbhə bölgəsi ilə Bənövşələr qəsəbəsi arasında bir neçə kəndin olduğunu söyləyib.

Zərərçəkmişin ifadəsindən sonra onun həyətinə mərmi düşməsi ilə bağlı baxış protokolu tədqiq edilib.

Məhkəmədə zərərçəkmiş şəxslərin barəsindəki tibbi-ekspertiza rəyləri də elan olunub.

Məhkəmə prosesində təqsirləndirilən şəxs Davit İşxanyana müdafiəçisinin səhhətinə görə prosesdə iştirak edə bilməyəcəyi, ona yeni müdafiəçinin təyin olunacağı bildirilib. D.İşxanyan müdafiəçisinin yaxşı vəkil olduğunu deyərək, yeni vəkilin təyinatına etiraz etmədiyini bildirib.

Məhkəmə prosesi iyunun 5-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycanın xarici siyasətinin uğurları

## "Bakı Enerji Həftəsi"nin 30 illik uğurlu tarixi var

**İyunun 2-dən Azərbaycan qlobal enerji sahəsində liderləri bir araya gətirən 30-cu "Baku Energy Week"i keçirir. Həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşaraq, qlobal tədbirlər təqvimində mühüm və gözlənilən hadisələrdən biri olan "Baku Energy Week" özündə 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"nu birləşdirir. Builki enerji həftəsində 39 ölkədən 267 şirkət iştirak edir. Sərgi iştirakçılarının təxminən 70 faizini xarici şirkətlər, 30 faizini isə yerli müəssisələr təşkil edir.**



Enerji həftəsinin əhəmiyyəti barədə qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Aydın Hüseynov bildirib ki, Azərbaycan iqtisadiyyatının enerji siyasətində koordinasiyanın olması inkişafın əsas meyarı kimi diqqəti cəlb edir. Ölkəmiz özünü artıq etibarlı tərəfdaş kimi sübut edib və bunun nəticəsidir ki, iqtisadiyyatımızın müxtəlif sahələrinə, əlbəttə ki, enerji sektoruna yatırılan investisiyaların miqdarı durmadan artır. "Əsrin müqaviləsi" Azərbaycanın bu gününə və gələcək inkişafına inamı yüksəldib. "Ölkəmizlə iqtisadi əməkdaşlıqda maraqlı olan dövlətlərin, şirkətlərin sayı durmadan artır. İmzalanan sazişlər, anlaşma memorandumları deyilənlərin təsdiqidir. Prezident İlham Əliyevin çıxışlarında Beynəlxalq Neft və Qaz sərgi-konfransının keçirilməsinin malik olduğumuz iqtisadi imkanların təqdimatı baxımından əhəmiyyəti xüsusi qeyd olunub. Xəzər Neft və Qaz Sərgisi 30 il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynayıb. O vaxtdan bəri bu tədbir daha da böyüyüb və enerji siyasətinin bütün əsas seqmentlərini - neft, qaz, kəşfiyyat, hasilat, emal və nəqliyyat sahələrini və əlbəttə ki, "yaşıl enerji"ni əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsi" olub, - deyə deputat bildirib.

İqtisadçi qeyd edib ki, bu tədbir enerji sahəsində nailiyyətlərimizin təqdimatı üçün önəmli platformadır. "Bakı Enerji Həftəsi"nin sayca 30-cu, yəni yubiley tədbiri keçirilir. Bu da onun uğurlu tarixindən və əhəmiyyətindən xəbər verir. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş "Caspian Oil & Gas" sərgisinin məntiqi davamı olan "Bakı Enerji Həftəsi" enerji diplomatiyamızın inkişafına yüksək töhfə verib. Bu istiqamətdə strateji tərəfdaşlarımızın sayı artıb, qlobal enerji xəritəsində ölkəmizin mövqeyi möhkəmlənib. "Bakı Enerji Həftəsi" nüfuzlu forumdur, burada ənənəvi enerji mənbələrindən bərpaolunan enerjiyə qədər geniş məzmunda məsələlər müzakirə edilir, yeni yanaşmalar olur, təhlillər edilir, dünya səviyyəli enerji dialoqu formalaşır. Azərbaycan enerji sektorunda inkişaf edərək çox uğurlu yol keçib, beynəlxalq nüfuzunu artırıb, strateji addımları ilə böyük bir qitənin enerji təhlükəsizliyində önəmli rola malik tərəfdaşa çevrilib. Ölkəmizin əsas prioritetləri sırasında enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, enerji təchizatının şaxələndirilməsi və "yaşıl enerji" üzrə davamlı inkişaf dayanır.

Azərbaycanın enerji sahəsində etibarlı və məsuliyyətli tərəfdaş mövqeyini gücləndirdiyini vurğulayan A.Hüseynov deyib ki, ölkəmiz erməni işğalından azad olunmuş ərazilərdə "yaşıl enerji" zonası yaradır və bunun inkişafında maraqlıdır: "Bu təşəbbüslər enerji sahəsində Azərbaycanın liderlik iddiasını əks etdirir. Bu il keçirilən "Bakı Enerji Həftəsi"ndə 39 ölkədən 267 şirkət iştirak edir. Ölkələr arasında Azərbaycanla yanaşı, Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Şimali İrlandiya, Bolqarıstan, Çexiya, Çin, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Hindistan, İsrail, İsveçrə, İtaliya, Qazaxıstan, Qvineya-Bisau, Lüksemburq, Macarıstan, Misir, Monako, Niderland, Norveç, Özbəkistan, Pakistan, Polşa, Rumıniya, Rusiya, Sinqapur, Səudiyyə Ərəbistanı, Slovakiya, Sloveniya, Türkiyə, Ukrayna, Yaponiya iştirak edir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Neft və Qaz Sərgisi: *ənənələr və yeniliklər*

**Ulu Öndər Heydər Əliyevin dəyərli yadigarlarından, Prezident İlham Əliyevin xüsusi önəm verdiyi tədbirlərdən biri olan Xəzər Beynəlxalq Neft və Qaz Sərgisinin ilk dəfə keçirildiyi 1994-cü ildən bəri zəngin ənənələri yaranıb. Tədbirin təşkilatçıları artıq uzun illərdir yubiley dövrlərində xüsusi tədbirlər keçirmək ənənəsini formalaşdırıblar. Bu il də istisna deyil.**

"Bakı Enerji Həftəsi"nin 30 illik yubileyi çərçivəsində təşkilatçılar xüsusi proqram hazırlayıblar. Enerji sahəsi üzrə ən yüksək nəticə göstərən və universiteti uğurla bitirən tələbələrin mükafatlandırılması ənənəsi bu il də davam etdiriləcək: Bakı Ali Neft Məktəbinin iki seçilmiş məzununa sərginin təşkilatçıları tərəfindən təqaüd veriləcək.

Yubiley tədbirləri çərçivəsində həyata keçiriləcək əsas təşəbbüslərdən biri Bakı Ekspo Mərkəzinin ərazisində ağac və gül əkilməsi olacaq. Bu təşəbbüs dayanıqlı inkişaf və ətraf mühitin qorunması məqsədi daşıyır. "Təbiətin Gücü: Bakı Enerji Həftəsinin 30 illik yubileyinə həsr olunmuş ağacəkmə mərasimi" adlı ekoloji təşəbbüs çərçivəsində həyata keçiriləcək tədbirlə yanaşı, Bakı Ekspo Mərkəzinin ərazisinin abadlaşdırılması məqsədilə bir sıra işlər görüləcək. Belə ki, Bakı Ekspo Mərkəzinin həyətində "Baku Energy Week"in 30 illik yubileyinə həsr olunmuş skamyalar quraşdırılacaq, həmçinin heyvanlar üçün nəzərdə tutulmuş sığınacaqlar yerləşdiriləcək. Bu təşəbbüslər tədbirin yalnız enerji sektoruna deyil, eyni zamanda sosial və ekoloji məsuliyyətə də verdiyi önəmin göstəricisidir.

Sərginin təqdim etdiyi imkanlardan daha səmərəli istifadə olunmasına dəstək məqsədilə 30-cu Yubiley "Baku Energy Week" təşkilatçıları tərəfindən iştirakçılar üçün biznes səhər yeməyi təşkil olunub. Tədbir çərçivəsində sərgiyə hazırlıq prosesində diqqət yetirilməli məqamlar, eləcə də iştirakçıların işgüzar əlaqələr qurmaq və sərgi imkanlarından maksimum faydalanmaq yolları barədə ətraflı məlumat təqdim edilib.

Bu il də "Baku Energy Week" enerji sahəsinin liderlərini bir araya gətirərək bilik və təcrübə mübadiləsi, strateji əməkdaşlıqların qurulması, innovativ texnologiyaların tətbiqi və yeni layihələrin təşəbbüsü üçün mühüm platforma rolunu davam etdirəcək. 30 il ərzində bu tədbir neft-qaz sektorunda yerli və beynəlxalq tərəfdaşlıqların inkişafına, yeni texnologiyaların tətbiqinə və ölkəmizin enerji sahəsində mövqeyinin güclənməsinə əhəmiyyətli töhfə verməyi bacarıb.

Yeniliklər də az deyil. 30-cu Yubiley "Baku Energy Week" çərçivəsində "Smart Energy Hub" adlı xüsusi startap zonası təqdim olunacaq. Sərgilər çərçivəsində təşkil ediləcək ənənəvi ikitərəfli işgüzar görüşlər (B2B və B2G) zamanı yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə edə biləcəklər. Bundan əlavə, ikitərəfli işgüzar görüşlər çərçivəsində özəl şirkətlərin nümayəndələri dövlət qurumlarının təmsilçiləri ilə görüş imkanı əldə edəcəklər. Tədbir çərçivəsində uzunmüddətli əməkdaşlığın gücləndirilməsi məqsədilə bir sıra Anlaşma memorandumlarının imzalanması nəzərdə tutulur.

Bu dəfə sərgi çərçivəsində bir sıra sessiyalar və panel müzakirələri də baş tutacaq. "Enerji sənayesində davamlılıq", "Karbon emissiyasının azaldılması istiqamətində alternativ enerji kimi nüvə enerjisinin rolu", "Təcrübə mübadiləsi: Gənc istedadları cəlb etmək və inkişaf etdirmək üçün ən yaxşı HR təcrübələri", "Enerjidə innovasiyalar: Gələcəyin sənayesinin formalaşmasında təhsilin rolu", "Enerjinin səsi" mövzularında panel müzakirələri keçiriləcək.

"Enerjinin səsi" panel sessiyasında media sahəsində uzun illər fəaliyyət göstərmiş jurnalistlər, media nümayəndələri və tədbirin təşkilatçıları iştirak edəcəklər. Sessiyada keçirildiyi illər ərzində Xəzər Neft və Qaz "Caspian Oil and Gas" sərgisinə öz töhfəsini vermiş media nümayəndələri çıxış edəcək və sessiyanın sonunda sertifikatlarla təltif olunacaq.

"Baku Energy Week" çərçivəsində "Ümid var" inklüziv cəmiyyətinin üzvü olan uşaqların yaratdığı rəsmlərdən ibarət sərgi təşkil olunub. Bu əsərlər sərginin axşam ziyafətini bəzəyəcək və ziyafət zamanı təqdim olunan əsərlərin hərracı keçiriləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*




## Sınanılmış dostluq, sarsılmaz birlik

**Azərbaycan haqq savaşında tək deyildi, onun haqlı mövqeyini müdafiə edən dövlətlər də var idi. Belə dövlətlərin ön sıralarında isə Türkiyə və Pakistan addımlayırdı. Ermənistanın işğalçı dövlət olaraq tanınmasında, torpaqlarımızın azad olunmasında bu iki dost və qardaş ölkə Azərbaycanın haqlı savaşını, mübarizəsini diplomatik yollarla bütün beynəlxalq tədbir və görüşlərdə müdafiə edərək Azərbaycanın yanında olmuş, bizi mübarizə meydanında tək qoymamışlar.**



27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə də bu qardaş dövlətlər Azərbaycanla bir yerdə, eyni mövqedə idilər. Bununla ölkəmizin haqq işini bütün dairələrdə müdafiə etmiş, düşmən üzərində Zəfərin qazanılmasına siyasi dəstəklərini əsirgəməmişdilər.

Azərbaycan, Türkiyə və Pakistan bu gün də bir yerdədir. Əvvəlki ildəkindən də güclü və qüdrətlidirlər. Çoxlarının qibtə etdiyi bu dostluğun, bu qardaşlığın təməli möhkəm, sarsılmaz dayaqlar üzərində qurulub. Zaman keçdikcə bu dostluq, bu əməkdaşlıq daha da inkişaf edir və dərinləşir.

Mayın 28-də - ölkəmizin Müstəqillik Günündə Azərbaycan, Türkiyə və Pakistan dövlətlərinin Laçın şəhərində bir araya gələrək görüşməsi, Üçtərəfli Zirvə görüşünün keçirilməsi bunu bir daha sübut etdi. Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şəriflə işğaldan azad edilmiş və sürətlə gözəl şəhərə çevrilən Laçında görüşməsi Ankara-Bakı-İslamabad əlaqələrinin yüksək səviyyədə olduğunu bütün dünyaya göstərdi.

Azərbaycan Prezidenti çıxışı zamanı liderlərin Müstəqillik Günündə ölkəmizə səfər etməsini yüksək dəyərləndirərək vurğuladı: "Bu gün əziz qardaşlarımın - Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik".

Şahbaz Şərif də Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd etməyin çox yaddaqalan bir gün olduğunu vurğuladı: "Bu gün - 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir".

Rəsmi Bakı bu görüş zamanı həm də dünyaya Laçında yaradılmış şəraiti, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinin möhtəşəmliyini nümayiş etdirdi. Həmin gün Laçın Beynəlxalq Aeroportunun açılışı da keçirildi. Azərbaycan bu qətiyyətli addımı ilə Laçının və işğaldan azad edilmiş digər bölgələrin ölkəmizin tarixi əraziləri olduğunu bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. İşğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işləri növbəti dəfə dünyaya göstərdi ki, əgər bu region ermənilərə məxsus olsaydı, vəhşicəsinə uçurub-dağıtmazdılar, yandırmazdılar. 30 ilə yaxın müddət ərzində işğal etdikləri rayon və kəndləri qarət etməzdilər, tarixi, dini, mədəni, sosial, inzibati və yaşayış binalarını söküb dağıtmazdılar.

Türkiyə və Pakistan liderlərinin müstəqilliyimizin 107-ci ildönümündə Laçına səfər etmələrini xalqımız böyük qürurla qarşıladı ki, bu da səbəbsiz deyildi. Qardaş Türkiyə NATO-nun üzvü, dost Pakistan isə nüvə dövlətidir. Belə qüdrətli ölkələrin Azərbaycanın yanında olması gücümüzü, qüvvəmizi və nüfuzumuzu daha da artırır. Prezident İlham Əliyev liderlərin görüşündə bu barədə demişdir: "Xüsusilə bu bölgədə, 30 il ərzində işğal altında qalan Laçın şəhərində bizim birgə olmağımız böyük rəmzi məna daşıyır. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq".

Pakistanın Baş naziri Şahbaz Şərif də çıxışı zamanı Hindistanın ərazilərinə hücumundan danışarkən ölkəsinin hərbi qüdrəti ilə yanaşı, onlara Türkiyə və Azərbaycanın verdiyi dəstəyi də vurğuladı: "Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy olduğunu nümayiş etdirdilər. Bu dərhal baş verdi. Bu bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilmərəm".

Müstəqillik Günündə liderlərin Laçın görüşündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı böyük önəm daşıyırdı. Qardaş ölkənin dövlət başçısı görkəmli şairimiz Səməd Vurğunun "Azərbaycan" şeirini söyləməklə Türkiyə ilə Azərbaycanın bir millət olduğuna işarə etdi, 86 milyon Türkiyə vətəndaşının salamını çatdırmaqla iki dövlətin birliyini göstərdi: "Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm".

Müstəqillik Günündə Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin görüşü üç ölkə arasında əməkdaşlığın bundan sonra daha da güclü şəkildə davam edəcəyini bir daha təsdiq etdi. Yaddaşlarda dərin iz salmış tarixi görüş bu iki qüdrətli dövlətin başçılarının, ictimaiyyətinin Prezident İlham Əliyev şəxsiyyətinə hörmətini də göstərdi. Laçın görüşündə Ankaranın, Bakının və İslamabadın qlobal miqyasda bir olduqlarını bütün dünya gördü.

Bu Zirvə görüşü Azərbaycan-Türkiyə-Pakistan birliyini, qardaşlığını daha da möhkəmləndirməklə yanaşı, üç qardaş ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yeni bir mərhələ olacaq. Zaman keçdikcə bu üç ölkənin iştirakı ilə yeni güc və inkişaf mərkəzi formalaşacaq. Dost, qardaş ölkələrlə qarşılıqlı əməkdaşlıq dərinləşdikcə, Azərbaycanın da gücü, qüdrəti, beynəlxalq nüfuzu daha da artacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## 2024-cü ildə Qazaxıstanla Azərbaycan arasında ticarət dövriyyəsi 600 milyon dollar təşkil edib

**"Azərbaycan regionda əsas karbohidrogen ixracatçısı olaraq qalır, Qazaxıstan isə əhəmiyyətli ehtiyatlara - 30 milyard barel neft və 2,5 trilyon kubmetr qaza malikdir. Ölkələr Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə enerji resurslarının tədarükü sahəsində fəal əməkdaşlıq edirlər. Artıq 2023-cü ildə Qazaxıstan Azərbaycan üzərindən neft ixracını 1,5 milyon tona çatdırıb. 2027-ci ilə qədər 6 milyon tona qədər artım planlaşdırılır. Bu, xüsusilə şimal marşrutlarına sanksiyalar təzyiqi kontekstində tədarükün diversifikasiyasında mühüm addımdır.**



2024-cü ildə Qazaxıstanla Azərbaycan arasında ticarət dövriyyəsi 600 milyon dollar təşkil edib. Potensial, şübhəsiz ki, daha yüksəkdir - 2030-cu ilə qədər ölkələr ticarətin həcmini bir milyard dollara çatdırmaq niyyətindədirlər. Burada ən mühüm sahələr kənd təsərrüfatı və maşınqayırma olaraq qalır. Gömrük prosedurlarının sadələşdirilməsi də əsas rol oynayır. Bu, xərcləri azaltmağa və qarşılıqlı ticarətin artımını stimullaşdırmağa kömək edir.

Bu əməkdaşlıq TDT iqtisadiyyatlarının inteqrasiyası üçün möhkəm zəmin yaradır. Ancaq daha da irəli getməliyik. Məsələn, birgə logistika qovşaqlarının yaradılması və gömrük standartlarının unifikasiyası TITR-də tranzit vaxtını 14 gündən 10 günə qədər azalda bilər. Bu, Rusiyadan keçən Şimal dəhlizi ilə müqayisədə onun rəqabət qabiliyyətini artırardı. Bu istiqamətdə uğur sərmayələri əlaqələndirmək və marşrutun Avropa bazarları ilə inteqrasiyası üçün Macarıstan da daxil olmaqla yeni tərəfdaşları cəlb etmək bacarığından asılı olacaq. Bununla belə, siyasi risklər, xüsusən də Qazaxıstanın AİÍ çərçivəsində Rusiyadan ticarət asılılığı irəliləyişi ləngidə bilər.

Qazaxıstan şərq istiqamətində əsas tranzit qovşağıdır. 2020-ci ildən 2024-cü ilə qədər dəmir yollarının və Aktau limanının modernləşdirilməsinə 3 milyard dollar sərmayə qoyulub. Azərbaycan, öz növbəsində, Qara dənizə və Türkiyəyə çıxışı təmin edir. Onun Bakı limanı, dəmir yolu əlaqələri və Zəngəzur dəhlizinə 500 milyon dollar sərmayə qoyması Türkiyəni Mərkəzi Asiya ilə birləşdirən alternativ marşrut yaradır. Aktau və Bakıda logistika mərkəzlərinin yaradılması üzrə birgə layihələr iki ölkə arasında koordinasiyanı gücləndirir". Bu sözləri Qazaxıstanlı ekspert, L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin professoru, politologiya doktoru, Müasir Tədqiqatlar İnstitutunun direktoru, Qazaxıstan Respublikasının xoşməramlı səfiri Muhit-Ardager Sadıknazarov AZƏRTAC-a müsahibəsində deyib.

Bu barədə düşünək

# OLMAYAN VELOSİPEDLƏR YOLLARDA TIXAC YARADIR

**Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin dekabrında imzaladığı yol hərəkətinin təhlükəsizliyi haqqında dövlət proqramına əsasən, ölkədə yol hərəkətinin təhlükəsiz vəziyyətə gətirilməsi, burada ətraf mühitin yaxşılaşdırılması, avtomobillərdən atılan zəhərli qazların miqdarının azaldılması, bir sözlə, respublika üzrə hərəkətin nizamlaşdırılması nəzərdə tutulub. Həmin sənəddə, eyni zamanda avtomobil yollarında, küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradılması, ekoloji təmiz nəqliyyat vasitələrinin istismarının stimullaşdırılması məsələləri də öz əksini tapıb. Dövlət başçısının imzaladığı sərəncama uyğun olaraq artıq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən Bakı şəhərində velosiped yollarının salınması istiqamətində hazırlanan layihənin icrasına başlanılıb.**

Söhbət velosipeddən düşdüyünə görə, tarixə nəzər yetirib bu barədə bəzi dəyərli məlumatlar öyrəndik. Öyrəndik ki, velosiped sözü fransızca "velocipede" "tez ayaq" deməkdir. İkitəkərli, əzələ qüvvəsi ilə pedalla hərəkətə gətirilən nəqliyyat vasitəsidir. Velosiped tikiş maşınından sonra dünyada kütləvi istehsal edilərək ya-



yılan ikinci texniki vasitədir. Təxmini hesablamalara görə, hazırda dünyada yarım milyarda qədər velosiped var. Yəqin çoxlarımız bilmirik ki, velosipedin tarixi 500 il bundan əvvəl görkəmli rəssam Leonardo da Vinçinin velosiped şəklini təsvir etməsi ilə başlayır. Bəzi məlumatlara görə, velosipedin ixtirası 1816-cı ildə vulkan püskürməsi nəticəsində atların kütləvi şəkildə məhv olmasından sonra yeni nəqliyyat vasitəsinin yaranmasını zəruri etmişdir. Almaniyanın Mahhaym şəhərində yaşayan Baron fon Drays tərəfindən ilk velosiped 1817-ci ildə ixtira edilmişdir. Bu, demək olar ki, tamamilə taxtadan düzəldilmiş, lakin pedallara malik olmayan bir velosiped olmuşdur. 1842-ci ildə velosipedlərin təkərlərinə rezin şinlər taxmaq ideyası ortalığa çıxanda artıq onların görünüşü indi gördüyümüz müasir formaya düşmüşdür.

## Velosipeddən ən çox istifadə olunan ölkə Niderlanddır

Velosipedin yaranması kimi, onun üçün çəkilən zolaqların tarixi də maraqlı hadisələrlə yadda qalıb. Bəzi tarixi mənbələrdə ilk velosiped zolağının 1885-ci ildə Niderlandda inşa edildiyi barədə məlumatlar yer alıb. 1890-cı illərdə isə bu ölkədə xüsusi velosiped zolaqları yaradılmağa başlanılıb. Əvvəllər velosiped zolaqları daha hamar və rahat olduğuna görə at arabaları və faytonlar da bu yolla gedirmiş. 1905-ci ildə isə hökumət velosiped zolaqlarında digər nəqliyyat vasitələrinin hərəkətini qadağan edib. Beləliklə, Niderland o vaxtdan dünyanın ən çox velosiped istifadə olunan ölkəsinə çevrilib. İnsanların getdikcə velosipedə artan marağını nəzərə alan BMT 2018-ci ilin aprel ayında keçirilən 72-ci sessiyasında 3 iyun tarixinin Dünya Velosiped Günü elan olunması ilə bağlı qətnamə qəbul edib.

Ölkəmizdə velosipeddən istifadənin tarixi 1930-cu ildən başlayır. Həmin ildə ilk dəfə olaraq Azərbaycanda velosipeddən nəqliyyat vasitəsi kimi istifadə olunub. O zamanlar velosipedlər Azərbaycana əsasən Rusiyadan gətirilirdi. İlk vaxtlarda velosiped məktəbli və tələbələr arasında çox populyar olub. Bu populyarlığa görə müntəzəm olaraq məktəblərarası və universitet daxilində yarışlar keçirilirmiş. 1980-ci ildə Ümummilli Lider Heydər Əliyevin müvafiq sərəncamı ilə Bakıda dünya standartlarına uyğun Respublika Velotreki tikilib istifadəyə verilib.

Qeyd etdiyimiz kimi, 2018-ci ildən ölkəmizdə də yol hərəkətinin təhlükəsizliyi haqda dövlət proqramına əsasən, küçə-yol şəbəkəsində velosiped zolaqlarının və duracaqlarının yaradılmasına başlanılıb. Görəsən, ötən müddət ərzində bu istiqamətdə hansı işlər görülüb, hansı addımlar atılıb? Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin mətbuat katibi Tural Orucov sualımızı cavablandıraraq bildirdi ki, agentlik tərəfindən Bakı şəhərində mikromobillik infrastrukturunun inkişaf etdirilməsi məqsədilə hə-



yata keçirilən layihə çərçivəsində davamlı mikromobillik zolağı təşkil edilir. Kəsintisiz mikromobillik zolağının təşkili üçün mərhələli qaydada paytaxtın küçə və prospektlərində salınan velosiped yolları bir-biri ilə əlaqələndirilir. Görülən işlər çərçivəsində müvafiq nişanlanma işləri aparılıb, təhlükəsizlik məqsədilə yol nişanları quraşdırılıb, əlçatanlığın təmin edilməsi üçün panduslar inşa olunub. Avtomobillərlə yarana biləcək toqquşma nöqtələrinin aradan qaldırılması üçün təhlükəsizlik sədləri quraşdırılıb. İstifadəçilərin təhlükəsizliyini artırmaq məqsədilə işıqforlarda velosiped bölmələri yaradılıb. AYNA tərəfindən mikromobilliklə bağlı təhlillər aparılır, əsas cəlbetmə məntəqələri, insanların gündəlik olaraq ən çox səfər etdiyi ərazilər müəyyənləşdirilir. Həmin ərazilərdə mikromobillik vasitələri üçün parklanma yerləri təyin olunur. Qeyd edək ki, hazırda paytaxtda mikromobillik vasitələri üçün 484 parklanma məntəqəsi müəyyən edilib. 8 ay ərzində (sentyabr-aprel) mikromobillik vasitələrindən 1 milyon 518 min dəfə istifadə olunub. Bu müddət ərzində 3 milyon 890 min kilometrə yaxın məsafə qət edilib.

Mətbuat xidmətinin rəhbəri daha sonra bildirdi ki, agentliyimiz əhali arasında velosiped və skuterlərdən istifadəyə artan marağı, eləcə də bu nəqliyyat növünün geniş istifadəsinin nəqliyyat sıxlığının azaldılması, ətraf mühitin qorunması, fiziki fəallığın artırılması və sağlam həyat tərzi baxımından əhəmiyyətini nəzərə alaraq, mikromobillik zolaqları şəbəkəsi genişləndirilir. Məqsəd xüsusilə yaxın məsafələrə səfərlər zamanı mikromobillik vasitələrini yol hərəkəti iştirakçıları üçün nəqliyyat vasitəsinə çevirməkdir. 2030-cu ilədək şəhər konsepsiyası çərçivəsində mikromobillik zolaqlarının uzunluğunun 100 kilometrə çatdırılması planlaşdırılır.

## Velosipedçi idmançılar bu zolaqlardan istifadə etmirlər

Şəhərimizin başqa ərazilərində olduğu kimi, iş yerimizə yaxın olan Mətbuat prospektində də velosiped zolaqları ayrılıb. Gün ərzində buradan keçərkən ayrılmış yollarda elə də çox velodipedçi görmürük. Bu da başqa sahələrə baxanda, bizim velosiped sürməyə marağımızın az olduğunu, daha çox avtomobillərə üstünlük verdiyimizi göstərir. Yəqin ki, bu da milli mentalitetdən irəli gələn xüsusiyyətdir. Amma bizdən fərqli olaraq bir çox Avropa ölkələrində insanlar işə velosipedlə gedib-gəlirlər. Artıq onlar bunu özlərinin həyat tərzinə çeviriblər. Ölkəmizdə isə velosipedlə işə gedib-gələn çox azdır, onları barmaqla saymaq olar. Biz əsla velosiped zolaqlarının ayrılmasının əleyhinə deyilik. Təbiidir ki, həvəskar velosipedçilər üçün bu, mütləq lazımdır. Çünki bu sahəyə yaşlı nəsildən çox gənclərimiz maraq göstərirlər. Velosiped həm də idmanın bir növüdür. Bu sahəyə maraq göstərən gənclərimiz sağlam böyüyür, pis vərdişlərdən uzaq olurlar. Ona görə də başqa sahələrlə yanası, bu istiqamətdə də müvafiq işlər görülməli, zəruri addımlar atılmalıdır. Amma bu addımlar atılarkən şəhərdəki nəqliyyatın sıxlığı da mütləq nəzərə alınmalıdır. Ayrılan velosiped zolaqları nəqliyyatın intensiv hərəkətinə mane olmamalı, tıxaclar yaratmamalıdır.

Gənclərimizin velosiped sürməyə maraq göstərməsindən söz düşmüşkən qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan Velosiped Federasiyasında bu idman növünün inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılıb. Gənclər arasında velosiped idmanının kütləviləşdirilməsi, bu sahəyə marağın daha da artması, həmçinin onların sağlam ruhda böyüməsi Azərbaycan Velosiped Federasiyasının fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir. Bəs, görəsən, velosiped idmanı ilə məşğul olan gənclərimiz şəhərimizdə yaradılmış zolaqlardan bəhrələnib, burada məşq edib təcrübə və səriştələrini artırırlarmı?

Sualımıza cavab tapmaq üçün Azərbaycan Velosiped Federasiyasına üz tutduq. Federasiyanın ərazisinə daxil olanda idmançıları xüsusi olaraq düzəldilmiş meydançada məşq edən gördük. Onlara müvafiq göstəriş və tapşırıqlar verən velosiped məşqçisi, idman ustası Elçin Qasımovla görüşüb söhbət etdik. Məşqçi bildirdi ki, Qazaxıstan Respubliksanın Astana şəhərində beynəlxalq velotrek yarışları keçiriləcək. İndi idmançılarımız həmin yarışlara hazırlaşırlar. Biz ilk dəfə deyil ki, belə yarışlarda iştirak edirik. İdmançılarımız kifayət qədər təcrübəlidirlər. Amma buna baxmayaraq, yenə də məşq edir, peşəkarlıqlarını artırırlar. Əminliklə deyə bilərəm ki, həmişəki kimi biz bu beynəlxalq yarışda da ölkəmizin idman şərəfini layiqincə qoruyacağıq.

Söhbət zamanı idman ustası Elçin Qasımovdan idmançıların məşq etməsi üçün şəhərimizdə yaradılmış velosiped zolaqlarından istifadə edib-etmədiklərini də soruşduq. Məşqçi bildirdi ki, biz bu zolaqlardan istifadə etmirik. Çünki bizim məşqlərimiz üçün bu zolaqlar uyarlı deyil. Velosipedçilərimiz peşəkarlıqlarını artırmaq üçün uzun məsafə qət etməlidirlər. Şəhərdəki velosiped zolaqları əsasən həvəskarlar üçün nəzərdə tutulub. Bizim üçün bu yolların məsafəsi çox qısadır, işıqforlar var, nəqliyyat intensiv hərəkət edir. Ona görə də biz bu velosiped zolaqlarından istifadə etmirik. İdmançılarımız daha çox Salyan yolu, Mərdəkan, Buzovna, Müşfiqabad qəsəbələri istiqamətində velosiped sürür, məşq edib vərdişlərini təkmilləşdirirlər.

Deməli, şəhərimizin müxtəlif yerlərində ayrılmış velosiped zolaqları dünyanın müxtəlif ölkələrində respublikamızın idman şərəfini layiqincə qoruyan idmançıların işinə yaramır. Onlar federasiyanın ərazisindəki xüsusi olaraq tikilmiş stadionda məşq edir, təcrübələrini artırır, iştirak edəcəkləri idman yarışlarına hazırlaşırlar. Söhbət zamanı onu da öyrəndik ki, fedarisiyanın 300-dən çox üzvü var. Onların məşq etmələri, yarışlara hazırlaşmaları üçün ərazidə hərtərəfli şərait yaradılıb.

## Velosipedlər az istehsal olunsa da, zolaqların məsafəsi uzadılır

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin mətbuat katibi Tural Orucovun verdiyi məlumatda qeyd olunurdu ki, 2030-cu ilədək şəhər konsepsiyası çərçivəsində mikromobillik zolaqlarının uzunluğunun 100 km-ə çatdırılması planlaşdırılır. Deməli, velosiped zolaqlarının məsafəsi uzadıldıqca, həvəskar velosipedçilərin sayı daha da çoxalacaq. Təbiidir ki, həvəskarlar çoxaldıqca, velosipedlərə də ehtiyac artacaq. Bəs, görəsən, son illər ərzində ölkəmizdə nə qədər velosiped istehsal olunub? İstehsal olunan velosipedlər həvəskarların ehtiyacını ödəyirmi? Dövlət Statistika Komitəsindən verilən məlumatda göstərilir ki, 2022-ci il ərzində ölkədə 650 ədəd velosiped istehsal edilib. Yəqin ki, bu qədər velosiped heç bir qəsəbənin əhalisinə də bəs etməz. Növbəti il, 2023-cü ildə velosiped istehsalı artırılaraq 2055 ədədə çatdırılıb. Haradasa, ikiqat artım olub. 2024-cü ildə isə bu rəqəm 3186-ya yüksəlib. Deməli, başqa sahələrdə olduğu kimi, velosiped istehsalında da irəliləyişlər əldə olunub. Yerli istehsalla yanaşı, respublikamıza başqa ölkələrdən də velosipedlər gətirilir. Təbiidir ki, istehsal olunan və gətirilən bu velosipedlərin hamısı Bakı şəhərində satılmır, bölgələrə də daşınır. Həm də on milyondan çox əhalinin hamısı da velosiped sürmür axı. Yəni bu qədər az sayda velosipedlər üçün şəhərdə zolaqların artırılmasına nə ehtiyac var? Çünki artırılan velosiped zolaqları nəqliyyatın hərəkətinə mane olur, pik saatlarında bəzi küçə və prospektlərdə tıxaclar yaradır.

Şəhərimizdə yaradılmış velosiped zolaqları ilə bağlı sakinlərlə və sürücülərlə söhbət etdik, bu barədə onların fikirlərini öyrəndik. İlk həmsöhbətimiz olan taksi sürücüsü Zülfüqar Süleymanov dedi ki, uzun illərdir Mətbuat prospektində dayanıram. Ötən il yolun bir kənarını velosiped zolağı üçün ayırdılar. Nəqliyyatın da həmin zolağa girməsinə qadağa qoydular, cərimə tətbiq etdilər. Əvvəlkinə baxanda yolun enliliyi azaldı, nəqliyyatın hərəkətində sıxlıq yarandı. Mən bir taksi sürücüsü, bir vətəndaş kimi yeniliyin əleyhinə deyiləm. Anlayırıq ki, həvəskarlar üçün velosiped zolaqlarının ayrılması da lazımdır.

*Ardı 10-cu səh.*

# Xankəndidə Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu keçirilib



**Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində təhsil və dövlət-özəl tərəfdaşlığının inkişafını təşviq etmək məqsədi daşıyan Qarabağ Təhsil və Tərəfdaşlıq Forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, Forum Elm və Təhsil Nazirliyinin və İqtisadiyyat Nazirliyinin tərəfdaşlığı, Qarabağ Dirçəliş Fondu, Təhsilin İnkişafı Fondu, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə təşkil olunub.

Qarabağın bərpası və inkişafında bütün tərəflərin koordinasiyalı fəaliyyətinin vacibliyini bir daha gündəmə gətirən tədbirdə dövlət qurumlarının nümayəndələri, bölgədə yerləşən xüsusi nümayəndəliklərin heyəti, özəl sektor təmsilçiləri, Qarabağ Universitetinin professor-müəllim heyəti olmaqla, 200-dən çox iştirakçı yer alıb.

"Gələcəyin Qarabağı üçün birgə addımlar" konsept mesajı ilə keçirilən forumun açılış mərasimində Qarabağ Universitetinin rektoru Şahin Bayramov, elm və təhsil naziri Emin Əmrullayev və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov çıxış edərək, Qarabağ bölgəsində təhsilin inkişafı, insan kapitalının gücləndirilməsi və dövlət-özəl sektor əməkdaşlığının strateji əhəmiyyəti barədə fikirlər səsləndiriblər.

"Qarabağ Təqaüd Proqramı"nın təsis olunması forumun əsas nəticələrindən biri olub. Belə ki, fərqli sektorları təmsil edən qurum və şirkətlər - Qarabağ Dirçəliş Fondu, "Veysəloğlu" Şirkətlər Qrupu, Azərbaycan Beynəlxalq Bankı, "Kapital Bank" ASC, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı, "McDonald's Azərbaycan" QSC, "PSG Capital" İnvestisiya şirkəti, ASELSAN şirkəti, "GEN ilaç" şirkəti, "LANDAU School" məktəb kompleksi, Hədəf Şirkətlər Qrupu, "Çaşıoğlu" şirkəti, "İnci" Şirkətlər Qrupu, "Code Academy", Bakı Dizayn Akademiyası və TUNA şirkəti Qarabağ Universitetində təhsil alan tələbələr üçün təqaüd təsis etmək öhdəliyini üzərlərinə götürüblər. Əsas məqsəd regionun sosial-iqtisadi inkişafına töhfə vermək, dövlət-özəl sektor əməkdaşlığını gücləndirmək, eləcə də gəncləri Qarabağa yönləndirmək və regiona olan marağı artırmaq, tələbələrə maddi dəstək göstərmək, onların akademik və peşəkar inkişafını təşviq etməkdir.

Təqaüd proqramı bölgədə insan kapitalının formalaşdırılmasına xidmət etməklə yanaşı, sosial həssas qruplara dəstək göstərməyi və akademik nailiyyətləri yüksək olan tələbələrin motivasiyasını artırmağı hədəfləyir.

Daha sonra forum çərçivəsində peşəkar moderator və spikerlərin iştirakı ilə iki fərqli mövzu üzrə panel müzakirəsi təşkil olunub. Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibovun moderatorluğu ilə keçirilən "Böyük Qayıdış: Çağırışlar və imkanlar" adlı I paneldə elm və təhsil naziri Emin Əmrullayev, Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev və Qarabağ Universitetinin rektoru Şahin Bayramov spiker qismində çıxış edərək, bölgənin yenidən qurulması və insan resurslarının inkişafı məsələlərinə toxunublar.

II panel isə "Qarabağda dövlət-özəl tərəfdaşlığı imkanları" mövzusuna həsr olunub. Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmovun moderator qismində çıxış etdiyi paneldə "Veysəloğlu" Şirkətlər Qrupunun təsisçisi və baş icraçı direktoru Aydın Talıbov, Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədrinin müavini Taleh Tahirli, "Kapital Bank" ASC-nin İdarə Heyətinin üzvü Fərid Hidayətzadə, Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Araz Paşayev bölgədə dövlət-özəl tərəfdaşlığının perspektivləri və qarşılıqlı əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Forum Qarabağ Universitetinin müəllim-tələbə heyətinin ifasında milli musiqilərimizin səsləndirildiyi bədii hissə ilə başa çatıb.

# Azərbaycan arxeoloqlarının xarici ölkədə apardığı tədqiqatların nəticələri beynəlxalq simpoziumda təqdim edilib

**AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları Mersin Universiteti professor Uğur Oral adına Mədəniyyət Mərkəzində keçirilən 45-ci Beynəlxalq Qazıntı, Tədqiqat və Arxeometriya Simpoziumunda iştirak ediblər.**

İnstitutdan AZƏRTAC-a bildirilib ki, simpoziumda Türkiyədə 2024-cü il ərzində yerli və xarici alimlər tərəfindən aparılmış arxeoloji qazıntılar, bərpa-konservasiya işləri, arxeoloji kəşfiyyat, antropoloji və arxeometrik tədqiqatlardan əldə edilən məlumatlar təqdim olunub.

Ötən ilin sentyabr ayında Türkiyə Respublikasının İğdır vilayəti ərazisində ölkənin Mədəniyyət və Turizm Nazirliyinin rəsmi icazəsi ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları Müzəffər Hüseynov (rəhbər), Səfər Aşurov və Bəxtiyar Cəlilovun daxil olduğu elmi heyətin və türkiyəli mütəxəssislərin iştirakı ilə arxeoloji kəşfiyyat işləri aparılıb. Bu, Azərbaycan arxeoloqlarının digər ölkə ərazisində təşkil edilmiş ilk arxeoloji ekspedisiyası olmaqla yanaşı, həm də Azərbaycan və Türkiyə arasında yeni bir ortaq araşdırma istiqamətinin başlanğıcı idi.

Müzəffər Hüseynov konfransın gedişatında sədrlik etməklə yanaşı, aparılan arxeoloji kəşfiyyat işləri ilə bağlı çıxış edib.




Simpozium iştirakçıları Mersin əyalətində antik dövrlərdə mövcud olmuş Olba Krallığı, Uzuncaburç (Diokaesareia) şəhər xarabalığı və e.ə. 3-cü əsrdə əsası qoyulmuş Kanlıdivane (Neapolis) şəhər yerini ziyarət edib, arxeoloji ekspedisiya rəhbərliyinin müşayiətilə burada aparılan arxeoloji qazıntı və bərpa işləri ilə yaxından tanış olublar.

Bundan əlavə, azərbaycanlı alimlər Mersin Arxeoloji Muzeyində və Azərbaycanda uzun müddət arxeoloji qazıntılar aparmış italiyalı arxeoloq professor Gulio Palumbinin Mersin əyalətində tədqiq etdiyi "Yumuktəpə" abidəsində olublar.

Qeyd edək ki, Türkiyədə türk və əcnəbi alimlərin iştirakı ilə qazıntı, tədqiqat və arxeometriya araşdırmalarının nəticələrinə həsr olunmuş ilk beynəlxalq simpozium Ankara şəhərində Türkiyə Tarix İnstitutunda 1979-cu ildə keçirilib.

## Bu barədə düşünək

*Əvvəli 9-cu səh.*

Amma yaxşı olardı ki, ərazilərdə zolağı ayırmazdan əvvəl müəyyən müşahidələr aparılsın. Müəyyənləşdirilsin ki, burada velosiped zolağı ayırmaq lazımdır, yoxsa yox? Demək olar ki, gün ərzində müştəri gözləyərkən zolağın yanında dayanıram. Bu müddət ərzində buradan ya üç, ya dörd velosipedçi keçər, ya da heç keçməz. Üç-dörd həvəskar velosipedçiyə görə günün pik saatlarında burada sıxlıq yaranır. Sürücülər də, sərnişinlər də xeyli əziyyət çəkir, mənzil başına gec çatırlar. Yaxşı olardı ki, velosiped zolaqları üçün yeri daha münasib ərazilərdə, nəqliyyatın intensiz olmadığı küçə və prospektlərdə ayırsınlar.

Şəhər sakini Mətin Hacızadə dedi ki, həvəskarlar üçün velosiped zolaqlarının ayrılmasına münasibətim pis deyil. Bu, şəhər sakinləri üçün bir yenilikdir. Bəlkə də yeni yaradıldığına görə hələ bizim buna gözümüz öyrəşməyib. Amma inanıram ki, zaman keçdikcə yavaş-yavaş buna alışacağıq. Zolaqlarda velosipedçilərin sayı getdikcə çoxalacaq.

### Zolaqlarda velosipedçilər az gözə dəyir

Velosiped zolağının izi ilə Mətbuat prospektindən Məmməd Rahim küçəsinə tərəf döndük. Burada velosiped zolağı və parklanma üçün ayrılmış yer yolu xeyli daraldıb. Yolun bir tərəfi ilə velosiped zolağı uzanır, bir tərəfində isə parklanma üçün yer ayrılıb. Yolda nəqliyyat vasitələrinin hərəkəti üçün bir avtomobilin yerləşəcəyi qədər yer qalıb. Təbiidir ki, bu da adi vaxtlarda olmasa da, pik saatlarında nəqliyyatın hərəkətinə mane olur, tıxac yaradır.

Məmməd Rahim küçəsində müştəri gözləyən taksi sürücüsü Əli Mirəliyev dedi ki, üç ali məktəbin - Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Bakı Dövlət Universitetinin və Azərbaycan Texniki Universitetinin qapıları bu küçəyə açılır. Dərslər başlayanda və sona çatan ərəfələrdə burada böyük sıxlıq yaranır. Çünki yolun bir hissəsi velosiped zolağı, bir hissəsi də parklanma üçün ayrılıb. Nəqliyyatın hərəkəti üçün yol çox daralıb. İki maşın yanaşı gedə bilmir. Tıxac səbəbindən müştərilərimizi mənzil başına vaxtında çatdıra bilmirik. Velosiped zolaqlarında isə velosipedçilər gözə dəymir. Bu zolaqlar yalnız və yalnız tıxac yaradır, nəqliyyatın hərəkətinə mane olur.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi Nihad Əliyev dedi ki, velosiped zolaqlarının ayrılmasını dövlətimizin gənclərə göstərilən diqqət və qayğısı kimi qiymətləndirirəm. Amma təəssüflər olsun ki, bu zolaqlarda onları velosiped sürən görmürük. Nə universitetə girəndə, nə də dərslərimizi bitirib çıxanda zolaqlarda velosiped sürənlər gözə dəymir. Qoy velosiped həvəskarları dövlətimizin yaratdığı bu imkandan səmərəli istifadə etsinlər.

- Düşünürəm ki, velosiped zolaqlarının ayrılması dövrün, zamanın tələbidir. Məlumdur ki, Avropa ölkələrində hələ illərcə əvvəldən velosiped zolaqları mövcuddur, - deyə Azərbaycan Texniki Universitetinin tələbəsi Rəşad Məmmədli söhbətimizə qoşuldu. - Amma zolaqlar ayrılsa da, mən həvəskarların velosipedlərini parklarda, geniş meydançalarda sürmələrinin tərəfdarıyam. Çünki belə həm təhlükəsizdir, həm də velosipedçilər nəqliyyatın hərəkətinə mane olmur, tıxac yaratmır. Məlumdur ki, zolaqla hərəkət edəndə qəza hadisəsi də baş verə bilər. Təbiidir ki, bundan qaçmaq lazımdır.

### "Saatlarla tıxacda qalırıq, müştəriləri mənzil başına vaxtında çatdıra bilmirik"

Məmməd Rahim küçəsindən Hüseyn Cavid prospekti ilə metronun "Elmlər Akademiyası" stansiyasına tərəf dönürük. Hüseyn Cavid prospekti ilə də üzü metro stansiyasına tərəf həvəskarlar üçün velosiped zolağı ayrılıb. Burada da velosipedçilər gözə dəymir. "Elmlər Akademiyası" stansiyasından Bakı Dövlət Universitetinə tərəf uzanan Bəxtiyar Vahabzadə küçəsində də velosiped zolağı var. Məmməd Rahim küçəsində olduğu kimi, burada da eyni mənzərədir. Yolun bir tərəfi parklanma, avtobus dayanacağı, digər tərəfi isə velosiped zolağı üçün ayrılıb. Nəqliyyatın hərəkəti üçün yol xeyli daralıb. Buna görə də günün pik saatlarında burada tıxac yaranır.

Bəxtiyar Vahabzadə küçəsində həm də şəhər sakinlərinə xidmət göstərən taksilər dayanır. Yolun bir hissəsinin velosiped zolağı üçün ayrılmasına münasibətini öyrənmək üçün sürücülərlə də söhbət etdik. Taksi sürücüsü Rövşən Mahmudov dedi ki, velosiped zolaqlarının yaradılması özlüyündə pis ideya deyil. Amma baxır ki, onu harada, hansı istiqamətdə yaratmaq. Dayandığımız bu küçədə nəqliyyatın hərəkətində həmişə sıxlıq olur. Çünki yaxınlıqda həm Bakı Dövlət Universiteti, həm Elmlər Akademiyası, həm də bir sıra idarə, müəssisə, banklar və müxtəlif təhsil ocaqları yerləşir. Bu yolla ictimai nəqliyyat da müntəzəm olaraq hərəkət edir. Belə sıxlıq olan küçədə velosiped zolağının ayrılması nəqliyyatın hərəkətini bir az da çətinləşdirir. Ona görə də çox da uzun olmayan məsafəni qət etmək üçün saatlarla tıxacda qalırıq, müştəriləri mənzil başına vaxtında çatdıra bilmirik. Yaxşı olar ki, həvəskarlar üçün velosiped zolaqları hərəkətin seyrək olduğu küçələrdə ayrılsın. Elə olsun ki, zolaqlar nəqliyyatın intensiv hərəkətinə mane olmasın, tıxac yaratmasın. Səhər ertədən axşama qədər vaxtımızın çoxunu burada dayanırıq. Gün ərzində zolaqda yalnız beş-altı nəfərin velosiped sürdüyünü görürük. Belə olan halda burada tıxaca səbəb olan velosiped zolağı ayırmağa ehtiyac varmı?






Daha sonra şəhər sakinlərindən və sürücülərdən Ramin Əhmədov, Cəfər Cəfərzadə, Alim Zeynalov, Emin İmaməliyev, Elçin Qurbanov, Səbinə İsmayılova, Şirindil Osmanov və başqaları ilə də velosiped zolaqlarının yaradılması ilə bağlı söhbət etdik. Onlar velosiped zolaqlarının ayrılmasını elə də müsbət qarşılamadılar. Şəhərin bəzi yerlərində bu zolaqların nəqliyyatın hərəkətini məhdudlaşdırdığını, tıxacların yarandığını bildirdilər.

Söhbət edə-edə üzüyuxarı qalxıb Mətbuat prospektinə çıxdıq. Buradakı velosiped zolağında da hərəkətdə olan kimsə gözə dəymirdi. Avtobus dayanacağının yaxınlığında icarəyə verilmək üçün qoyulmuş velosipedlər də boynubükük vəziyyətdə qalmışdı.

Şəhərimizin mərkəzi küçə və prospektlərində də velosiped zolaqları ayrılıb. Başqa yerlərə baxanda Bülbül prospekti, 28 May küçəsi, İstiqlaliyyət küçəsi, Azərbaycan küçəsi və başqa yerlərdəki zolaqlarda velosiped və skuter sürənlərin çox olduğunu gördük.

### Bəs ekspertlər bu barədə nə fikirləşirlər?

Görəsən, şəhərimizdə velosiped zolaqlarının ayrılmasını bu sahənin ekspertləri necə qiymətləndirirlər? Avtosfer.az saytının rəhbəri, nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı ilə bu mövzuda söhbət etdik. Ekspert küçə və prospektlərdə çəkilmiş velosiped zolaqları ilə bağlı fikirlərini bizimlə bölüşərək dedi ki, şəhərimizdə velosiped yollarının ayrılması zərurəti illərdir mövcud idi. Çünki son zamanlar velosipedçilərin sayında getdikcə artım müşahidə olunurdu. Onlar da hərəkət iştirakçısı olaraq, öz hüquqlarını tələb edərək deyirdilər ki, nəqliyyat vasitəçiləri üçün, piyadalar, avtobuslar üçün yollar var. Bəs nə üçün velosipedçilər də nəzərə alınıb onlar üçün yollar çəkilmir? Bildiyiniz kimi, son zamanlar velopideçlilərlə yanaşı, skuterlər də həyatımıza daxil olublar. Dövlət tərəfindən də ümumi belə bir qərar qəbul olundu ki, velosiped və skuterlər üçün də ümumi yoldan zolaq ayrılsın. Bir çox başqa paytaxt şəhərlərində olduğu kimi, Bakı şəhərində də velosipedçilər və skuterlər üçün zolaq yaradıldı. İndi həmin yerlərdə kiçik elektrik mühərrikli nəqliyyat vasitələri ilə yanaşı, həm də velosipedlər təhlükəsiz və rahat hərəkət edirlər. Gələcəkdə velosiped zolaqlarının artırılması da nəzərdə tutulur. Belə bir təklifim var ki, gələcəkdə velosipedlərin, mopedlərin, skuterlərin, motosikllərin, eyni zamanda taksilərin avtobus zolaqlarında hərəkət etməsinə yenidən baxmaq və müvafiq qərar qəbul etmək olar. Yəni, bu addım bütün şəhər üzrə yox, bəzi nöqtələrdə hərəkətin sıxlığının qarşısını almaq məqsədilə atıla bilər. Velosiped yollarının standartlara uyğun gəlirmi sualına cavab olaraq qeyd edim ki, zolaqlar bəzi nöqtələrdə tam analiz ediləndən sonra çəkilib. Amma təəssüf ki, bəzi yerlərdə zolaqlar müəyyən çətinliklər yaratdı. Buna görə də yolların bəzi hissələrini ləğv etdilər. Yaxud da ayırıcı sədd kimi quraşdırılmış xüsusi maneələri aradan qaldırdılar ki, ümumilikdə ictimai nəqliyyatın hərəkətinə maneçilik yaranmasın.

Çox təəssüflər olsun ki, velosiped zolaqları bəzi küçələrdə nəqliyyatın hərəkətinə çətinlik yaradır. Amma məktəblərin qarşısında indiyə qədər hökm sürən xaotik vəziyyət yavaş-yavaş qaydasına düşür. Əvvəllər valideynlər maşınlarını birinci, ikinci cərgədə saxlayırdılar. İndi həm velosiped zolağı yaranıb, həm də ikinci cərgədə dayanmağın cəriməsinin miqdarı artırılıb. Bununla da indi məktəblərin qarşısında tıxac aradan qaldırılıb. Amma indi də başqa bir təhlükə yaranıb. Bir də görürsən ki, budur, nəqliyyat vasitələri hərəkət edə-edə məktəbli velosiped zolağından qaça-qaça yola çıxaraq onu gözləyən maşına minir. Belə vəziyyətdə qəza törədilə bilər. Təəssüf ki, bu cür hallar hələ də qalmaqdadır. Sanki insanlar yeniliklərə öyrəşə bilmirlər.

Bəzən soruşurlar ki, velosiped yollarının çəkilməsinə ehtiyac var idimi? Düşünürəm ki, var idi. Çünki onlar da hərəkətin bir iştirakçısı sayılır. Velosipedçilərin müəyyən yollardan istifadə etmələrinə ehtiyac yaranmışdı. Amma dediyim kimi, bunu başqa yollarla da həll etmək olardı. Biz müəyyən bir dövrdə hansısa addımı atırıq, sonradan əks-təsirlər çox olanda onun qarşısını almaq üçün müəyyən tədbirlər görürük. Təbiidir ki, bu, bütün küçələrə aid deyil. Bəzi problemlər yaşanan küçələrdə istiqaməti dəyişmək və yaxud velosiped zolaqlarını parkların içindən salmaq olar. Yaxşı haldır ki, son dövrlər zolaqlar parkların içindən salınır. AYNA-ya bu barədə müəyyən təkliflər də vermişəm. Bildirmişəm ki, velosiped zolaqları şəhərimizdə yeni salınacaq parkların içindən salınsa yaxşı olar. Artıq bunu təcrübədə görmüşük. Nərimanov heykəlinin yanından keçən velosiped zolağı bir az qabağa gedəndən sonra sağa burularaq Mərkəzi parkın içindən keçib üzü Füzuli meydanına tərəf şaxələnir. Əlbəttə, bu yaxşı bir



təklif və addımdır. Çünki parkların içindən keçən velosiped zolaqları nəqliyyatın hərəkətinə heç bir əngəl törətmir, tıxac yaratmır.

### Avropa ölkələrində velosipedlərə relyefi düz olan yerlərdə üstünlük verilir

Ekspert daha sonra sözünə davam edərək xarici ölkələrdə yaradılmış velosiped zolaqlarından da danışdı. Dedi ki, Avropa və dünya ölkələrində, ümumiyyətlə, velosiped zolaqları daha çox relyefi düz olan küçə və prospektlərdə çəkilir. Bakı şəhəri üçün mən bunu optimal saymazdım. Yəni, velosipedlərin bəzi küçə və prospektlərdə olmasına hansısa bir zərurət görmürəm. Çünki relyef elədir ki, burada hərəkət etmək çətinliklər yaradır. Məsələn, əgər Yasamal rayonunun ərazisində velosiped zolağı yaradılıbsa, burada yaşayanlar bu zolaqdan ərazini tərk etməmək şərti ilə istifadə etsə, yaxşı olar. Əgər Yasamalda yaşayan velosipedçi zolaqla Bayıl qəsəbəsinə, yaxud Azneft meydanına düşübsə, yenidən oradan geri qayıtmaqda xeyli çətinliklər çəkəcək. Çünki diki, yoxuşu velosipedlə qalxmaq elə də asan məsələ deyil. Buna görə də bir çox Avropa ölkələrində velosipedlərə daha çox o halda üstünlük verirlər ki, relyef düzdür, eniş-yoxuş sərt deyil. Deməli, təhlükə və çətinlik də yox dərəcəsindədir. Ancaq Bakı şəhərində eniş-yoxuş da çoxdur. Ona görə də velosipedçilər belə sərt və eniş-yoxuşlu yollara maraq göstərirlər. Nə qədər çalışsaq da, gələcəkdə insanlarımızın kostyumda, qalstukda velosipeddə gəzintiyə çıxdığını görmək bizə qismət olmayacaq! Təbiidir ki, tək-tük hallarda buna rast gəlirik. O da zərurətdən irəli gələn məsələlərdir. İşlər zamanla necə tənzimlənəcəksə, onu biz gələcək illərdə görəcəyik.

Ekspertin də qeyd etdiyi kimi, doğrudan da velosiped zolaqlarının sərt enişli, yoxuşlu yerlərdən keçməsi onu idarə edənlərdə müəyyən çətinliklər yaradır. Çünki velosiped sürənlərin hamısı gənclər deyil, aralarında hərdən yaşlı adamlara da rast gəlirik. İstər cavan, istərsə də yaşlı adam üçün dik yoxuşlarda velosiped sürmək müəyyən fiziki çətinliklər yaradır. Azərbaycan Velosiped Federasiyasında olarkən uzun illərdən bəri burada həkim işləyən Leyla Cahani ilə bu mövzuda da söhbət etdik. Həkim dedi ki, yaşla bağlı olaraq bütün idman növlərində müəyyən kateqoriyalar var. Başqa idman növlərindən fərqli olaraq velosiped sürmək bütün yaşlarda mümkündür. Məsələn, elə insan var ki, yetmiş yaşında da velosiped sürür, çünki artıq buna vərdiş edib. Şəhərimizdə yaradılmış velosiped zolaqları peşəkar idmançılar üçün deyil, həvəskarlar üçün nəzərdə tutulub. Həvəskarlar üçün də heç bir kateqoriya və yaxud yaş həddi yoxdur. Yəni onu heç kim məcbur edə bilməz ki, sən burada velosiped sür, ya sürmə? Seçim onun özünündür. Əgər velosipedçi özünə güvənmirsə, sərt yoxuşlu yollarla hərəkət etməməlidir. Çünki istər cavan, istərsə də yaşlı adamlar üçün belə yollarda velosiped sürmək hərəkət zamanı müəyyən çətinliklər yaradır.

### Vəziyyətdən çıxış yolları var, sadəcə olaraq, onu axtarıb tapmaq lazımdır

Qeyd olunduğu kimi, şəhərimizin bir çox küçə və prospektlərində velosiped zolaqları yaradılıb, rənglənib və işarələnib. Təbiidir ki, bütün bunlar alqışlanmalı işlərdir. Çünki gənclərimiz asudə və istirahət vaxtlarında onlar üçün ayrılmış bu yollarda velosiped sürərək fiziki hazırlıqlarını artırırlar. Amma təəssüflər olsun ki, yolları daraldan bu velosiped zolaqlarında hərəkət edənlər seyrək görünür. Sürücülərin də dediyi kimi, velosiped zolaqları var ki, gün ərzində buradan beş-on velosipedçi və ya skuter sürən keçir, ya da heç keçmir. Velosiped və skuter sürmək üçün ayrılmış zolaqlarda hərəkət edənlər az olsa da, bu yollar nəqliyyatın hərəkətinə mane olur, bir çox ərazilərdə həm pik saatlarda, həm də başqa zamanlarda tıxac yaradır. Nəticədə sürücülər həm vaxt itirir, həm də yanacaq sərfiyyatı ilə üzləşirlər. Müştərini mənzil başına vaxtında çatdıra bilmirlər. Üstəgəl, əsəb gərginliyi də bir tərəfdən insanları hövsələdən çıxarır. Gedəcəyi ünvana tələsən sürücülər velosiped zolağına daxil olanda cərimələnirlər. Ona görə də tıxacda gözləməkdən başqa yolları qalmır. Sürücülər, sərnişinlər yollarda xeyli ləngiyib əziyyət çəkirlər. Yollarda hərəkət etməyən, olmayan velosipedlər tıxac yaradır. Bəs bu vəziyyətdən çıxış yolları tapmaq olarmı?

Təbiidir ki, istənilən çətin bir vəziyyətdən qurtulmaq üçün çıxış yolları var. Sadəcə olaraq, onu axtarıb tapmaq lazımdır. Təklif kimi qeyd edək ki, nəqliyyatın intensivliyini təmin etmək tıxacın qarşısını almaq məqsədilə velosipedçilərin az, seyrək göründüyü zolaqlarda günün pik saatlarında sürücülərin bu yollarda hərəkətinə icazə verilməsi pis olmazdı. Yaxud da, günün pik saatlarında velosipedçilərin hərəkətini məhdudlaşdırmaq da tıxacın aradan qaldırılmasına az da olsa köməyi dəyər. Hər halda nəqliyyatın intensivliyini təmin etmək üçün ən optimal yol tapılmalıdır ki, sürücülər, sərnişinlər mənzil başına tez çatsınlar. Yanacaq və vaxt itkisi ilə üzləşməsinlər. Ən başlıcası isə əsəbiləşməsinlər, səbirləri sınağa çəkilməsin. Ekspert Elməddin Muradlının da təklif etdiyi velosipedlərin, mopedlərin, skuterlərin, motosikllərin, eyni zamanda taksilərin avtobus zolaqlarında hərəkət etməsi məsələsini də nəzərdən keçirmək olar. Əl-ələ verib çalışmaq lazımdır ki, şəhərimizin yollarında həm velosipedçilər rahat hərəkət etsin, həm də nəqliyyatın hərəkətində sıxlıq yaranmasın, tıxac problemi aradan qaldırılsın. Yollar üst-üstə düşüb kəsişməsin, problemlər yaranmasın.

*Vahid MƏHƏRRƏMOV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Xəzərin sahillərində növbəti təmizlik aksiyası keçirilib



**Çimərlik mövsümünün başlanması ərəfəsində Sabunçu Rayon İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə rayon ərazisində sahilyanı ərazilərin tullantılardan təmizlənməsi məqsədilə növbəti iməcilik aksiyası təşkil olunub.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, aksiyanın əsas məqsədi Xəzər dənizinin biomüxtəlifliyinin mühafizəsinə töhfə vermək, sahilyanı ərazilərin məişət tullantılarından təmizlənməsini təmin etmək, ətraf mühitin qorunması və ictimai şüurun artırılması istiqamətində vətəndaşları maarifləndirmək olub.

Sanitar-gigiyenik vasitələrlə təmin olunmuş aksiya iştirakçıları tərəfindən sahilboyu ərazi plastik və digər tullantılardan təmizlənib. Ümumilikdə 2 tona yaxın tullantı toplanaraq "Təmiz Şəhər" ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

Ətraf mühitin mühafizəsinə və vətəndaş məsuliyyətinin artırılmasına mühüm töhfə verən belə tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.



# Azərbaycan milli geyimi Parisdə nümayiş olunub



**Paris yaxınlığındakı Monfermey (Montfermeil) kommunasında "Mədəniyyətlər və Yaradıcılıq" (Cultures & Cryation) adlı moda nümayişinin 20 illiyi qeyd olunub.**

AZƏRTAC xəbər verir ki, moda nümayişində Azərbaycanın milli geyimi də təqdim olunub. "LVMH" (Molt Hennessy Louis Vuitton) və "LİVE" assosiasiyasının sponsorluğu ilə keçirilmiş dəfilədə Azərbaycan milli geyimini Adela Naibova təqdim edib.

"Mədəniyyətlər və Yaradıcılıq" dəfiləsinin builki nəşri "Bütün formalarında sülh" adı ilə təqdim olunub. Moda nümayişinin ikinci hissəsində istedadlı gənc dizaynerlər verilmiş mövzu əsasında geyimlər hazırlayıblar. Azərbaycanəsilli gənc dizayner Səkinə İşıq təxminən iki həftə ərzində tikdiyi üç paltarı təqdim edib.

"Mədəniyyətlər və Yaradıcılıq" adlı moda şousunun 20-ci ildönümünü qeyd etmək üçün 150-dən çox dizayner öz geyimlərini təqdim edib və təxminən 40 ölkə diqqət mərkəzində olub.

2005-ci ildə yaradılmış həvəskar dizayner və modellərin bu moda nümayişi yaradıcılığı, mədəni ifadə müxtəlifliyini və yerli istedadı nümayiş etdirmək məqsədi daşıyır. O, həmçinin moda dünyası ilə tanış olmayan gənc moda həvəskarlarına tanınmaq fürsəti təqdim edir.



# "AzerGold" QSC Daşkəsən şəhərində uşaqlar üçün səyyar kukla tamaşası təşkil edib



**"AzerGold" QSC-nin təşkilatçılığı, Daşkəsən Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Daşkəsən şəhərində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə səyyar kukla tamaşası təşkil olunub.**

"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Daşkəsən Mədəniyyət Mərkəzində baş tutan kukla tamaşasını Gəncə Dövlət Kukla Teatrının peşəkar yaradıcı heyəti təqdim edib. Müəllifi dramaturq Əhməd Oruc, quruluşçu rejissoru Şamil Məmmədli olan tamaşa "Zınqırovlu pişik" əsəri əsasında səhnələşdirilib.

Kukla tamaşasında uşaqlar həm əylənib, həm də dostluq, xeyirxahlıq və dürüstlük kimi vacib dəyərlərin həyatda qarşıya çıxan çətinliklərin öhdəsindən gəlməkdə nə qədər önəmli olduğunu aşılayan səhnələrlə tanış olublar. Səhnə dekorasiyası və personajların interaktiv təqdimatı uşaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Tamaşanı 300 nəfərə yaxın azyaşlı, o cümlədən "AzerGold" QSC və törəmə cəmiyyətləri - "Daşkəsən Dəmir Filiz" MMC, "AzerBlast" MMC-də çalışan əməkdaşların övladları izləyiblər. Sonda tamaşa personajları azyaşlılara cəmiyyətin adından hədiyyə qutularını təqdim ediblər.

Tədbirin məqsədi uşaqların mədəni istirahətinə töhfə vermək, onların bayramını daha yaddaqalan və əyləncəli etməkdir. "AzerGold" QSC-nin bu təşəbbüsü, şirkətin korporativ sosial məsuliyyət çərçivəsində icra etdiyi uşaqların fərdi inkişafına yönəlmiş maarifləndirmə layihələrinin bir hissəsidir.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası uşaqlar üçün master-klas təşkil edib









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərəfindən 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar "Sən də hüquqlarını tanı" mövzusunda master-klas təşkil olunub.**

AHİK-in Əmək və Sosial Münasibətlər Akademiyasının İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində keçirilən tədbirdə həmkarlar ittifaqı üzvlərinin övladları iştirak ediblər.

Əvvəlcə uşaqlara akademiya haqqında məlumat verilib. Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini icra edən Yusif Ağayev azyaşlıları salamlayaraq onları bu əlamətdar gün münasibətilə təbrik edib.

Tədbirdə uşaq hüquq və azadlıqlarından danışılıb, onların qorunması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Vurğulanıb ki, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda uşaq hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verilir, onların sağlam, hərtərəfli, Vətənə layiqli övlad kimi böyümələri, təhsil almaları üçün hər cür şərait yaradılıb. Qeyd edilib ki, xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlar daim dövlətimizin diqqətindədir. Həmçinin uşaqlara müstəqil, suveren, qalib Azərbaycanın vətəndaşı olaraq ölkəmizin gələcək inkişafı naminə çalışmaq, bunun üçün yaxşı oxumaq, biliklərə yiyələnmək tövsiyə olunub.

Tədbirdə uşaq hüquqları ilə bağlı təqdimat olub, dövlətimizin uşaqlara göstərdiyi diqqət və qayğıdan bəhs edən videoçarx nümayiş etdirilib. Eləcə də master-klasda iştirakçılara mövzu üzrə tapşırıqlar verilib, qrup işləri yerinə yetirilib.

Sonda iştirakçılara sertifikat və hədiyyələr təqdim olunub.

*N.ƏSGƏROVA, "Azərbaycan"*

# Beynəlxalq humanitar hüququ pozan İrəvana təzyiq göstərilmir



**Mayın 31-də Goranboy rayonunda növbəti mina hadisəsi baş verib, xəsarət alan şəxsin ayağı amputasiya edilib. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan 30 il ərzində işğala məruz qalıb, bu dövrdə azərbaycanlı mülki vətəndaşlar mina terrorunun qurbanı olublar.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında xatırladıb ki, Ermənistan silahlı qüvvələrinin işğalı dövründə Azərbaycan ərazilərində 1,5 milyon mina basdırılıb ki, bu da ölkə ərazisinin 13 faizini təşkil edir. Hektarlarla ərazi hələ də mina və partlayıcı sursatlarla çirklənmiş təhlükə zonası hesab olunur. Ermənistanın 30 illik mina terroru nəticəsində beynəlxalq humanitar hüquq, o cümlədən fundamental insan hüquqları kobud şəkildə pozulub. "Minaların təmizlənməsi uzun illər çəkə bilər ki, bu da münaqişədən sonrakı reabilitasiya və yenidənqurma işlərinə təsir göstərir. Bütün bunlar bir milyona yaxın keçmiş qaçqın və məcburi köçkünün öz doğma yurdlarına qayıtmasını çətinləşdirir. Ermənistan tərəfindən təqdim edilən mina xəritələri isə qeyri-dəqiqdir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, son üç onillik ərzində 3400-dən çox azərbaycanlı mina partlayışlarının qurbanı olub, onlardan 359-u uşaq, 38-i isə qadındır. 44 günlük Vətən müharibəsinin başa çatmasına və 2020-ci ildə münaqişəyə son qoyulmasına baxmayaraq, Ermənistan 2023-cü ilin sentyabrında keçirilən yerli antiterror əməliyyatları nəticəsində Azərbaycan ərazilərini tərk etməyə məcbur edilənədək minaların yerləşdirilməsini davam etdirib. 2022-ci ildə məlum oldu ki, Ermənistan tərəfindən 2021-ci ildə istehsal edilən 2700-dən çox piyada əleyhinə mina Azərbaycanın Laçın və Kəlbəcər rayonlarında basdırılıb. Bu fakt Ermənistanın uzun müddət iddia etdiyi "mina istehsal etmirik və ixrac etmirik" bəyanatlarının tamamilə yalan olduğunu sübut etdi. Bundan əlavə, 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatlarından sonra, Azərbaycan ərazilərində, o cümlədən Rusiya sülhməramlılarının yerləşdiyi bölgələrdə 500000-dən çox mina aşkarlanıb. Bu, təhlükənin miqyasını bir daha göstərir. 2020-ci ilin noyabrında müharibə başa çatdıqdan sonra mina partlayışları nəticəsində 400-ə yaxın azərbaycanlı xəsarət alıb və ya həyatını itirib.

P.Vəliyeva bildirib ki, Ermənistan müəyyən xəritələr təqdim etsə də, lakin bu, mina basdırılmış ərazilərin yalnız kiçik bir hissəsini əhatə edib və onların dəqiqliyi cəmi 25 faiz olub: "Son dövrlərdə baş verən mina hadisələrinin 55 faizindən çoxu isə bu xəritələrin əhatə etmədiyi ərazilərdə baş verib. İşğaldan azad olunmuş ərazilərə geri qayıdan şəxslər üçün minalarla bağlı məlumatlandırıcı sessiyalar təşkil edilsə də, bu təhlükə hələ də qalmaqdadır. Minalar və digər partlayıcı maddələrlə çirkləndirilmiş təhlükəli ərazilər ANAMA tərəfindən müəyyən olunur və "təhlükəsizlik qeydləri" ilə işarələnir. Lakin ictimaiyyət də ayıq-sayıqlığını itirməməli, bu hala qarşı məsuliyyətli olmalıdırlar. Milli Məclisdə ötən payız sessiyasında bir çox müzakirələr keçirildikdən sonra "Minatəmizləmə fəaliyyəti" haqqında qanun qəbul edildi və bunun hüquqi əsasları müəyyən edildi".

Deputat deyib ki, minatəmizləmə fəaliyyəti uzun sürən prosesdir və burada beynəlxalq dəstəyin olması da çox önəmlidir. Azərbaycan bu sahədə effektivliyi artırmaq məqsədilə bütün resurslarını səfərbər edib və ən son texnologiyalara sərmayə yatırıb. Lakin görülən əhəmiyyətli səylərə baxmayaraq, beynəlxalq dəstək hələ də kifayət qədər deyil. Hazırda minalardan təmizləmə əməliyyatlarının təxminən 95 faizi Azərbaycan dövləti tərəfindən maliyyələşdirilir. Mina terroru ətraf mühitə və biomüxtəlifliyə də ciddi ziyan vurur. Belə ki, regionda yaşayan nəsli kəsilməkdə olan heyvanlar da minanın yaratdığı fəsadlar nəticəsində məhv olur. Ermənistan isə dəqiq mina xəritələrini təqdim etməməklə səmimi sülh niyyətinin olmamasını nümayiş etdirir. Bu davranış müharibənin real nəticələrinin hələ də davam etdiyini və Ermənistanın məsuliyyətdən qaçmaq istədiyini göstərir. Ümumilikdə isə işğal nəticəsində dəymiş maddi ziyanın həcmi 200 milyard manata yaxındır.

Deputat düşünür ki, münaqişələrdən əziyyət çəkmiş, mina və partlayıcı qalıqlarla çirklənmiş ərazi problemi olan ölkələrin vahid beynəlxalq təşəbbüslə çıxış etməsi və dünya gündəminə bu problemin ağır fəsadlarını gətirməsi mina terroruna qarşı beynəlxalq mübarizəni artıra bilər.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



# Ermənistanın mina terrorçuluğu sülhə təhlükədir

**Yüzminlərlə keçmiş məcburi köçkün vətəndaşımız həsrətlə dədə-baba yurdlarına - Qarabağ və Şərqi Zəngəzura qayıdışını gözləyir. Ancaq həmin ərazilərdə Ermənistan tərəfindən basdırılmış kütləvi minalar Böyük qayıdışın sürətlə həyata keçirilməsinə başlıca əngəl törədir.**

Təcavüzkar ölkə təkcə işğal dövründə deyil, 44 günlük savaş bitdikdən sonra da ərazilərimizdə mina basdırmağa davam edib. Müharibədən sonra Laçında xeyli sayda piyada əleyhinə minalar aşkarlanıb ki, onlar 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır. Belə torpaqlarımız Ermənistan tərəfindən 1 milyondan çox mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib.

44 günlük müharibə bitdikdən sonra xeyli ərazi minalardan təmizlənib. Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) may ayının sonuna olan məlumatına görə, Vətən müharibəsindən sonra 202 min hektardan artıq ərazi mina və hərbi sursatlardan təmizilənib, 196 mindən çox mina və sursat aşkarlanıb.

Amma mina təhlükəsindən tamamilə qurtulmaq üçün külli miqdarda maliyyə vəsaiti və vaxt tələb olunduğu da danılmaz gerçəklikdir. Hələ 2022-ci ildə Prezident İlham Əliyev Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısının plenar iclasında bildirmişdi ki, beynəlxalq mütəxəssislərin hesablamalarına görə, ərazilərini minalardan təmizləmək üçün Azərbaycana təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır.

Amma basdırılmış minalar təkcə zaman və vəsait problemi deyil. Statistikaya görə, ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 4 minə yaxın vətəndaşımız minalardan zərər çəkib. Yaxın günlərdə də dinc vətəndaşlarımızın mina qurbanı olması barədə acı xəbərlər aldıq. Belə ki, mayın 31-də bir nəfər vətəndaşımız keçmiş təmas xəttində minalardan təmizlənməmiş Goranboy rayonunun Yenikənd kəndi ərazisində mal-qara otararkən minaya düşərək xəsarət alıb. İyunun 1-də də Kəlbəcərdə mina hadisəsi baş verib. Susuzluq kəndi ərazisində traktorun minaya düşməsi zamanı partlayış olub. Nəticədə traktorun sürücüsü xəsarət alıb.

Xatırladaq ki, 2021-ci ilin iyununda - 4 il əvvəl Susuzluq kəndi ərazisində mina partlayışı baş vermiş, nəticədə üç vətəndaşımız həlak olmuşdur. Xidməti vəzifələrini yerinə yetirmək üçün işğaldan azad edilmiş Kəlbəcərə ezam olunmuş telekanal və informasiya agentlikləri əməkdaşlarını aparan KamAZ markalı sərnişin avtomobilinin Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyətinin Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olmuş, daha 4 nəfər isə müxtəlif dərəcəli xəsarətlər almışdır.




Mina partlayışlarının davam etməsi nəticəsində vətəndaşlarımızın zərər çəkməsi təcavüzkar Ermənistanın mina terrorunun səngimək bilmədiyini göstərir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mayın 31-də sosial şəbəkədə, "Azərbaycanda mina terroru qalmaqdadır" yazması da bunu təsdiqləyir. Prezidentin köməkçisi bildirir ki, minalar Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı zamanı qəsdən və hər tərəfdə basdırılıb: "Bir çox hallarda minalar hər hansı hərbi zərurət olmadan - yalnız mülki şəxsləri hədəf almaq və məcburi köçkünlərin öz ata-baba torpaqlarına təhlükəsiz qayıdışını qəsdən gecikdirmək üçün qoyulub. Bu xüsusda, minalar kütləvi qırğın silahı funksiyası daşıyır və ciddi təhlükə yaradır".

Azərbaycan Xarici İşlər Nazirliyinin mayın 31-də və iyunun 1-də baş verən mina partlayışları ilə əlaqədar yaydığı məlumatda deyilir ki, ölkəmizdə iki gün ard-arda baş verən mina partlayışları dinc sakinlərə zərər vurub. Qeyd olunub ki, Ermənistanın Azərbaycan ərazilərini mina ilə çirkləndirməsi səbəbindən 2020-ci il Vətən müharibəsindən indiyədək 397 nəfər həlak olub və ya yaralanıb. Vurğulanıb ki, yaşayış məntəqələri və qəbiristanlıqları hədəfə alan bu mənfur əməllər beynəlxalq humanitar hüququ pozur və sakinlərin öz evlərinə qayıtmasına mane olur.

Göründüyü kimi, Ermənistanın dəqiq mina xəritələrini ölkəmizə verməməsi səbəbindən bu günə qədər də vətəndaşlarımız mina terrorunun qurbanına çevrilir, həlak, yaxud əlil olurlar. 2021-ci ildə Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında basdırılan mina sahələrinə dair Ermənistan tərəfindən verilmiş məlumatların dəqiqliyi cəmi 25 faiz təşkil edib. 2024-cü ilin fevralında Ermənistanın Azərbaycana təqdim etdiyi növbəti mina sahələrinə dair 8 ədəd formulyarda da məlumatların əvvəlkilər kimi qeyri-dəqiq, etibarsız və natamam əks edildiyi məlum olub.

Yeri gəlmişkən, qeyd edək ki, təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda keçirilən ədalət məhkəməsində təcavüzkar Ermənistanın törətdiyi hərbi cinayət əməlləri faktlarla ifşa olunur. Həmçinin təqsirləndirilən şəxslər xalqımıza qarşı törətdilən çoxsaylı müharibə cinayətlərini etiraf edirlər. Məhkəmə prosesində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş, Ermənistan vətəndaşı David Manukyanın ölkəsinin Azərbaycan ərazilərində mina basdırmasını etiraf etməsi də bunu təsdiqləyir. O, "komandir"i olduğu "Ağdərə rayonunun 7-ci müdafiə xətti"nin hərbçilərinin Goranboy rayonunun Gülüstan kəndi istiqamətində mina basdırdıqlarını etiraf edib.

Təcavüzkar Ermənistan ərazilərimizi həm də piyada əleyhinə minaların tarlasına çevirib, baxmayaraq ki, beynəlxalq humanitar hüquq, 1997-ci ildə qəbul edilmiş Ottava Müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.

Dildə sülh tərəfdarı olduğunu deyərək konstitusiyasını dəyişməyən, ATƏT-in keçmiş Minsk qrupunun de-yure ləğvi üçün birlikdə müraciət etməkdən yayınan və sürətlə silahlanan Ermənistanın ölkəmizə qarşı ərazi iddialarından əl çəkmədiyi gün kimi ortadadır. Digər tərəfdən də Ermənistan tərəfi minalanmış ərazilərin dəqiq xəritələrini Azərbaycana təhvil verməkdən boyun qaçırmaqla və bununla, demək olar ki, hər gün vətəndaşlarımızın mina terroruna tuş gəlmələrinə şərait yaratmaqla xalqımıza qarşı qanlı əməllərini davam etdirmək niyyətində olduğunu və qətiyyən sülh istəmədiyini nümayiş etdirir.

Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi mina terroru dərhal dayandırılmalıdır. Beynəlxalq təşkilatlar da təcavüzkar ölkənin qanlı əməllərini görməzdən gəlməməli və ona dəqiq mina xəritələrini ölkəmizə təhvil verməsi üçün təzyiq göstərməlidirlər.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*



# Azərbaycana zəfər yaraşır



## Minifutbol üzrə milli komandamız Bakıda keçirilən dünya çempionatının qalibi oldu



Möhtəşəm atmosfer, mükəmməl təşkilatçılıq, inanılmaz azarkeş dəstəyi... Bakıda keçirilən minifutbol üzrə dünya çempionatı başa çatıb. Milli Gimnastika Arenasında təşkil olunan final görüşündə Azərbaycan və Macarıstan yığmaları üz-üzə gəlib. Matç komandamızın 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Milli komandamızın dünya çempionluğu beynəlxalq miqyasda ölkənin imicini qaldırmaqla yanaşı, onun imkanlarını növbəti dəfə nümayiş etdirdi.

Sevindirici haldır ki, Azərbaycanın minifutbolda potensialı ildən-ilə daha da güclənir. Minifutbolçularımızın qazandıqları tarixi zəfər onu göstərir ki, ümumiyyətlə, Azərbaycanda idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanmağa qadirdilər.

Azərbaycan Minifutbol Federasiya (AMF) rəhbərliyi az vaxtda uğura aparan yolun qısa xülasəsini təqdim etdi və bir daha bəlli oldu ki, həqiqətən də istənilən sahədə qısa zamanda uğurun qazanılması mümkündür. Əgər yüksək təşkilatçılıq bacarığı, istedad, peşəkar yanaşma, diqqət və qayğı, ən əsası isə milli ruhun, vətənpərvərliyin ən ali dəyər kimi qəbul edildiyi yerdə zəfər qaçılmazdır. Yalnız azərbaycanlılardan ibarət və milli ruha malik komanda yaradılıb və düzgün idarəetmə sayəsində qısa zamanda yüksək nəticələr əldə edilib.

Dünya çempionatında təşkilatçılıq ən yüksək səviyyədə idi. Göründüyü kimi, qısa müddətdə bu qədər işin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edir. Lakin Azərbaycan Minifutbol Federasiyası ən yüksək formada bunun öhdəsindən gəlməyi bacardı. Bakıda mundiala hazırlıq, püşkatma mərasiminin, çempionatın yüksək səviyyədə təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, AMF rəhbərliyi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atıb.

Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov Azərbaycan millisinin Bakıda keçirilən dünya çempionatında qalib olması barədə danışarkən deyib ki, düşüncələrini sözlə ifadə etmək çətindir: "Azarkeşlərimizə və xalqımıza dəstəyə görə təşəkkür edirəm. Yığmamız turnir ərzində demək olar ki, səhvsiz irəlilədi. Macarıstana qarşı final görüşündə də əla mübarizə apardı".

O.Məmmədov ən böyük dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib: "Əlbəttə ki, bu tarixi uğur dövlətimizin başçısı İlham Əliyevin xeyir-duası, Azərbaycan Minifutbol Federasiyasına olan dəstəyi sayəsində ərsəyə gəldi. Biz bu işi məhz dövlətin maliyyə və infrastruktur baxımından dəstəyi ilə bacardıq. Prezident İlham Əliyev hər zaman idmana qayğı göstərir. Bundan sonrakı məqsədimiz uşaqları bu idman növünə cəlb etmək və yeni uğurlar qazanmaqdır".



Gənclər və idman naziri Fərid Qayıbov isə deyib ki, dünya çempionatı kimi böyük turnirin Azərbaycanda keçirilməsi gözəl addımdır: "Minifutbol millimiz bunadək Avropa çempionu olub, dünya çempionatında dördüncü yeri tutmuşdu. Bu idman növü ölkəmizdə yüksək səviyyədə inkişaf edir. Burada dövlətin dəstəyi mühüm yer tutur. Bildiyiniz kimi, idman ölkəmizdə dövlət siyasəti kimi müəyyənləşdirilib. Bunun nəticəsində Azərbaycanda irimiqyaslı yarışlar keçirilir, yeni qələbələr olur və idmanımız inkişaf edir".

Dünya Minifutbol Federasiyasının vitse-prezidenti Peter Kralik isə qeyd edib ki, Bakıda minifutbol üzrə dünya çempionatı möhtəşəm təşkil olundu. O, mundialın yerli azarkeşlər tərəfindən böyük izdihamla qarşılandığını bildirib: "Dünya çempionatı üçün böyük dəstək göstərildi. Azərbaycanın minifutbol üzrə çox gözəl komandası var. Onlara öz təbrikimi çatdırıram. Milli komandanız turnir ərzində əla oyun nümayiş etdirdi və qələbəni haqq etdi. Bu yarış minifutbol tarixində ən mötəbər turnir oldu".

Qurum rəsmisi keçirildiyi Milli Gimnastika Arenasında olan təşkilatçılığı bəyəndiyini vurğulayıb: "Bu cür tədbirləri təşkil etməyin necə çətin olduğunu bilirəm. Lakin Azərbaycan bunun öhdəsindən əla şəkildə gəldi".

Minifutbol üzrə Azərbaycan millisinin baş məşqçisi Elşad Quliyev isə bildirib ki, tarixi qələbə oldu: "Bu yolda əməyi olan hər kəsə təşəkkür edirəm. Möhtəşəm qələbə idi. Sadəcə olaraq bu hissləri yaşamaq lazımdır. Çempion olmaq qismətimizdə var imiş. Demək olar ki, bu oyunda vurduğumuz zərbələrin hamısı qolla nəticələndi. Azərbaycan xalqını təbrik edirəm".

Minifutbol üzrə Azərbaycan millisinin üzvü Xətai Bağırov Bakıda keçirilən dünya çempionatının qalibi olmaları barədə danışarkən deyib ki, hissləri sözlə ifadə etmək çox çətindir: "Final matçına yüksək səviyyədə hazırlaşmışdıq. Bu oyuna qədər bir çox qol epizodlarından istifadə edə bilmirdik. Lakin bu gün ilk dəqiqələrdən qollar vurmağa başladıq. Bizə dəstək olan hər kəsə təşəkkür edirəm".

Göründüyü kimi, bu gün Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasını və mötəbər arenalarda bayrağımızın dalğalanmasını hamılıqla şərəf və qürur hissi ilə seyr ediriksə, bütün bu nailiyyətlərin təməlində məhz dövlətin uğurlu idman siyasəti dayanır.

Gənclik və idman bir-birini tamamlayan məfhumlardır. Müasir gənclərin hərtərəfli formalaşması, rəqabətədavamlı yetişdirilməsi məhz dövlətin uğurlu gənclər siyasətinin davamıdır. Gənclərimiz tək idmanda deyil, bütün sferalarda aktiv rolu ilə seçilir, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə də mühüm rol oynayırlar. Bütün bunlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


Azercell

abunəçilərinin nəzərinə!

03 iyul 2025-ci il tarixindən etibarən "Azercell Telekom" MMC-nin "Premium" tarif istifadəçilərinə ödənişsiz təqdim olunan "Kinon Premium" abunəliyinin tərkibində yalnız "Kinon" paketi yer alacaq. Həmin tarixədək "Kinon Premium" abunəliyi çərçivəsində istifadəçilərə "Kinon" və "Amediateka" paketləri birgə təqdim olunurdu. "Amediateka" xidməti qeyd olunan tarixdən etibarən artıq digər paketlər daxilində və ya ayrıca abunəlik formasında əlçatan olacaq. Göstərilən tarixədək aktiv edilmiş "Kinon+Amediateka" paketi növbəti yenilənmə tarixindən avtomatik qaydada "Kinon" paketi ilə əvəz ediləcək.

**Qeyd:** Abunəçilərə göstərilən dəyişikliklər, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX və ya Ekskluziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN); bazar ertəsi - cümə, 09:00 - 18:00; Şənbə, 09:00 - 16:00; e-poçt: destek@azercell.com) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.


# İstanbulda Rusiya və Ukrayna arasında danışıqların yeni raundu keçirilib

İyunun 2-də Rusiya və Ukrayna nümayəndə heyətləri İstanbulda Boğazın sahilindəki Çırağan sarayında sülh danışıqlarının yeni raundunu keçirib. Xatırladaq ki, ötən ayın 16-da keçirilən birinci görüşdən sonra tərəflər "1000-ə 1000" formatına əsasən genişmiqyaslı məhbus mübadiləsi aparmaq, mümkün atəşkəslə bağlı fikirlərini ətraflı şəkildə təqdim etmək, sonra isə danışıqları davam etdirmək barədə razılığa gəlmişdilər. Kiyev və Moskva bildiriblər ki, İstanbulda razılaşdırılmış məhbus mübadiləsi mayın 25-də başa çatıb.

Eyni zamanda ötən raunddan sonra tərəflər arasında münasibətlər gərginləşməkdə davam edib: Rusiya ballistik raket və pilotsuz təyyarələrlə hücuma keçib, Ukrayna pilotsuz təyyarələrlə cavab verib və bu, ABŞ Prezidenti Donald Trampı narazı salıb. Təbii ki, baş verən hadisələr növbəti danışıqlarda əlverişli ab-havanın yaradılmasına kömək etməyib, lakin tərəflər atəşkəs və Ukrayna böhranının bütün aspektlərinin müzakirəsinə keçməyə hazır olduqlarını bildiriblər.

Qeyd edək ki, Rusiya-Ukrayna danışıqlarının ikinci raundunun ikihəftəlik fasilədən sonra İstanbulda keçirilməsinə dair razılıq ötən həftə Moskvaya və Kiyevə səfər edən, həmçinin Böyük Britaniya və Fransa xarici işlər nazirləri ilə telefon danışıqları aparan Türkiyənin xarici işlər naziri Hakan Fidanın fəal vasitəçilik səyləri sayəsində əldə edilib.

Türkiyə diplomatiyasının rəhbəri Moskvaya rəsmi səfəri zamanı mümkün atəşkəs üçün hansı real parametrlərin ola biləcəyi ilə bağlı rəsmi Ankaranın baxışını Prezident Vladimir Putinə, xarici işlər naziri Sergey Lavrova, xarici kəşfiyyat xidmətinin direktoru Sergey Narışkinə və İstanbul danışıqlarında Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinskiyə təqdim edib.

Kiyevdə Hakan Fidan Prezident Volodimir Zelenski, onun ofisinin rəhbəri Andriy Yermak, xarici işlər naziri Andriy Sibiqa və müdafiə naziri Rustem Umerovla danışıqlar aparıb. Danışıqlardan sonra Türkiyə diplomatiyasının rəhbəri "Ukraynada bir il ərzində sülh yolu ilə nizamlanmaya nail oluna biləcəyini" güman edib və həmçinin ümidvar olduğunu bildirib ki, iyunun 2-də keçiriləcək görüşdə "texniki işlər əsasən başa çatdırılacaq" və "İstanbul danışıqları prosesini başa çatdırmaq, ABŞ, Ukrayna, Rusiya və Türkiyə prezidentlərinin görüşünü keçirmək" mümkün olacaq.



Son məlumata görə, Türkiyənin xarici işlər naziri Hakan Fidan İstanbulda Çırağan sarayında keçirilən danışıqlarda Rusiya və Ukrayna nümayəndə heyətləri qarşısında salamlama nitqi söyləyib.

Fidan görüşdən əvvəl deyib: "Bugünkü görüşümüzdə atəşkəs şərtlərini və qlobal addımları müzakirə etməyi planlaşdırırıq. Eyni zamanda humanitar nöqteyi-nəzərdən mülki şəxslərin və hərbi əsirlərin mübadiləsini də müzakirə etməyi planlaşdırırıq".

Nazir xatırladıb ki, İstanbulda keçirilən əvvəlki görüşdə tərəflər "1000-ə 1000" formatında məhbus mübadiləsi barədə razılığa gəliblər: "Vəd edildyi kimi, hər iki tərəf atəşkəs və ondan sonrakı addımlarla bağlı mövqelərini müəyyənləşdirib. Biz həmçinin (Rusiya və Ukrayna) liderlərinin görüşü üçün lazımi hazırlıq işlərini nəzərdən keçirəcəyik".

Fidan qeyd edib ki, "tərəflər arasında müntəzəm təmaslar qarşılıqlı etimada gətirib çıxarır. Hər iki tərəf ölkəmizə güvənir və bu, bizim üçün çox vacibdir" .

Diplomat həmçinin bildirib ki, Türkiyə İstanbuldakı görüşün məhsuldar keçəcəyini gözləyir.

"RosSMİ" Türkiyə və Rusiya mənbələrinə istinadən xəbər verir ki, danışıqlar bir saatdan çox davam edib və rus dilində aparılıb. Ukrayna Rusiya ilə danışıqların yeni raundunun iyunun sonunadək, 20-30 iyun tarixlərində keçirilməsini təklif edib. Bunu İstanbulda danışıqların ikinci raundunda Kiyev nümayəndə heyətinə başçılıq edən Ukraynanın müdafiə naziri Rustem Umerov deyib. Bununla belə Rusiya Federasiyası və Ukrayna nümayəndə heyətlərinin növbəti görüşü ilə bağlı konkret razılaşmalar yoxdur.

Nazir həmçinin bildirib ki, Rusiya və Ukrayna danışıqlarda ağır xəstə və ağır yaralı hərbi əsirlərin, eləcə də 18-25 yaşarası əsirlərin mübadiləsi barədə razılığa gəliblər. Onun sözlərinə görə, tərəflər ölənlərin cəsədlərinin "6000-ə 6000" formatında dəyişdirilməsi qərarına gəliblər.

Umerov təsdiq edib ki, Rusiya tərəfi Kiyevə müharibənin dayandırılması şərtləri ilə bağlı memorandum verib. Ukraynanın müdafiə naziri Rustem Umerov danışıqlardan sonra mətbuata açıqlama verərkən bildirib ki, tərəflər bütün məsələlərdən yalnız biri - əsirlərin dəyişdirilməsi ilə bağlı razılığa gəliblər: " Birinci məsələ atəşkəsdir. İkincisi, insanlarımızın, məhbusların, oğurlanmış uşaqların azad edilməsidir. Üçüncüsü, liderlərin görüşüdür. Biz yalnız mübadilə ilə bağlı razılığa gəldik. Rusiya tərəfi atəşkəs bəndini rədd edib.Təfərrüatları sonra verəcəyik".

"Suspilne" agentliyinin xəbərinə görə, Ukrayna Prezidenti Volodimir Zelenski İstanbuldakı görüşdən sonra Rusiya və Ukrayna nümayəndə heyətləri tərəfindən fikir mübadiləsi aparıldığı və yeni hərbi əsir mübadiləsinin hazırlandığını bildirib.

Öz növbəsində Prezident Aparatının rəhbəri Andriy Yermak qeyd edib ki, İstanbulda aparılan danışıqlar zamanı geri qaytarılmalı olan ukraynalı uşaqların siyahısı rəsmən Rusiya tərəfinə verilib. Söhbət Rusiya Federasiyasına qanunsuz deportasiya edilmiş, məcburi köçkün düşmüş və ya müvəqqəti işğal olunmuş ərazilərdə saxlanılan yüzlərlə azyaşlıdan gedir.

Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski isə bildirib: "Biz ən böyük, ən genişmiqyaslı mübadilə haqqında aşağıdakı formata uyğun olaraq razılaşdıq: birincisi, bütün ağır yaralılar və ağır xəstələr dəyişdiriləcək. Bu, bizim tərəfimizdən humanitar bir jestdir. İkincisi, 25 yaşından aşağı bütün gənc əsgərlər dəyişdiriləcək".

Türkiyə Xarici İşlər Nazirliyinin məlumatına görə, Rusiya və Ukrayna nümayəndə heyətləri arasında İstanbulda keçirilən danışıqlar "mənfi nəticələr olmadan" başa çatıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Vaqif Həsənov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova qardaşı

**SAAT SAATOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova qardaşı

**SAAT SAATOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İsaxan Vəliyev, Abbas Əliyev, Hacı Nərimanoğlu Ceyhun Musaoğluna qardaşı

**ELNUR MUSAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3743
Sifariş 1125

Qiyməti 60 qəpik